## MUĞAM AZƏRBAYCANIN MİLLİ SƏRVƏTİDİR



Son illərdə respublikamızda gözəl ənənə formalaşıb. Belə ki, Prezident İlham Əliyevin regionlara mütəmadi hal alan səfərləri zamanı bir qayda olaraq, bölgələrdə çoxsaylı infrastruktur qurğuları ilə yanaşı, mədəni təyinatlı obyektlər də yerli sakinlərin istifadəsinə verilir. Milli memarlıq ənənələri nəzərə alınmaqla yüksək standartlar səviyyəsində inşa olunan belə obyektlər bütün ölkə üzrə mədəni mühitin canlanmasına, insanların milli mədəniyyətimizə bağlılığının daha da möhkəmlənməsinə, tarixdən gələn ənənələrin yaşadılmasına və daha da zənginləşdirilməsinə öz müsbət təsirini göstərir...

Bax səh. 3

## DİLİMİZİN SAFLIĞININ QORUNMASI VƏ İNKİŞAFI HƏMİŞƏ DÖVLƏTİMİZİN DİQQƏT MƏRKƏZİNDƏDİR



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanda göstərilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər...

Bax səh. 6



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 07 noyabr 2018-ci il, çərşənbə / № 211 (5338). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq



*Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək öz işğalçı qüvvələrini tezliklə Azərbaycan torpaqlarından çıxarmalıdır*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

⬥ ❖ ⬥

Prezident İlham Əliyev Hüseyn Nizami oğlu Nəcəfovun Azərbaycan Respublikasının Ruminiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

⬥ ❖ ⬥

Prezident İlham Əliyev Fərid Şamil oğlu Abdinbəyovun Azərbaycan Respublikasının Ruminiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

## Ankaradakı Heydər Əliyev Bağında ağacəkmə aksiyası keçirilib

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Batıkent rayonunun Uğur Mumcu məhəlləsində yerləşən Heydər Əliyev Bağında təşkil olunan ağacəkmə aksiyasında iştirak edib və ağac əkib. AZƏRTAC xəbər verir ki, "Fidanlar fidanlarla böyüyür!" şüarı altında keçirilən tədbirdə Türkiyənin dövlət və hökumət nümayəndələri, Ankara ictimaiyyətinin tanınmış simaları, səfirlər, deputatlar, o cümlədən məktəblilər iştirak ediblər. Ağacəkmə aksiyası ilə bağlı Heydər Əliyev Bağında böyük izdiham yaşanıb. Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış edib. Ədalət və İnkişaf Partiyası (AKP) tərəfindən həyata keçirilən yaşıllaşdırma siyasətinin davamı olan...

Bax səh. 3

## Kaliforniyanın Monterey şəhəri Azərbaycan bayrağı ilə bəzədilib



ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərində Azərbaycanın Dövlət Bayrağının 100 illiyi qeyd edilib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşəbbüsü ilə Monterey şəhərinin mərkəzində yerləşən Alvarado küçəsi Azərbaycan bayraqları ilə bəzədilib...

Bax səh. 3



## İSPANİYADA "DİNLƏRARASI DİALOQUN SÜLHƏ VƏ QARŞILIQLI ANLAŞMAYA TÖHFƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS İŞİNİ DAVAM ETDİRİB

İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans noyabrın 5-də...

Bax səh. 4

## ÖLKƏMİZ MULTİKULTURALİZM VƏ TOLERANTLIĞIN MƏRKƏZİNƏ ÇEVRİLİB

...Sivilizasiyalararası münasibətlər və dialoq, eləcə də tolerantlıq mühitinin formalaşması üçün müəyyən amillər olmalıdır. Azərbaycanda tarixən həm coğrafi baxımdan, həm də sosial-mədəni cəhətdən həmin amillər mövcud olub. Belə ki, coğrafi baxımdan tarixi İpək Yolunun üstündə və Şərqlə Qərbin kəsişdiyi yerdə yerləşməyimiz, sosial-mədəni cəhətdən isə ərazimizdə bir çox dinlərin mövcud olması, mədəniyyətlərin qurulması sivilizasiyalararası dialoq və tolerantlıq mühitinin yaranmasına gətirib çıxarmışdır. Ənənə şəklində nəsillərdən nəsillərə ötürülən bu mühit bu gün artıq müstəqil və müasir Azərbaycan dövlətinin siyasətində prioritet istiqamətlərdən biridir. Dövlət başçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində mədəniyyətlər və dinlərarası qarşıdurmaların artdığı dövrümüzdə müxtəlif mədəniyyətlərin qovşağında yerləşən müstəqil ölkəmiz multikulturalizm və tolerantlığın mərkəzinə çevrilib. Öz ənənə və dəyərlərini qoruyaraq müasir dünyaya inteqrasiya edən...

Bax səh. 7



## MİLLİ MƏCLİS KOMİTƏLƏRİNİN BİRGƏ İCLASINDA 2019-CU İLİN BÜDCƏ ZƏRFİNİN MÜZAKİRƏSİ DAVAM EDİB

Noyabrın 6-da Milli Məclisin Əmək və sosial siyasət, Səhiyyə, Mədəniyyət, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi...

Bax səh. 5

## Respublikamızda yeni mövsümdə sahələrdən 201 min tondan çox pambıq yığılıb

...Hələ tarlalarda yığılmamış məhsul çoxdur. Ağcabədili "ağ qızıl" ustaları təsərrüfat ilini uğurla başa vurmaq, 25 min tondan artıq pambıq istehsal edərək, strateji məhsulun tədarükündə respublikanın qabaqcılları sırasında durmağı hədəfləyiblər. "Respublikamızda kənd təsərrüfatının ənənəvi sahələrindən biri də pambıqçılıqdır. Ona həmişə "ağ qızıl" demişik. Bu sahəni inkişaf etdirməli, daha çox əkib becərməliyik. Bu, məşğulluğun artmasına, kənd sakinlərinin rifah halının yaxşılaşmasına təsir göstərən amildir". Bu sözləri Ağcabədi rayon sakini...

Bax səh. 8

### Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın iclası keçirilib



Dövlət Miqrasiya Xidməti (DMX) yanında İctimai Şuranın iclası keçirilib. DMX-dən AZƏRTAC-a bildiriblər ki, iclasda Xidmətin rəisi Vüsal Hüseynov...

Bax səh. 4

### Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatı ötən 25 ildə uğurlu fəaliyyəti ilə seçilib

1992-ci ildə Naxçıvan şəhərində Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyası (YAP) müstəqil dövlətçiliyimizin...



Bax səh. 6

### Bakı V Beynəlxalq Teatr Konfransına yekun vuruldu

Noyabrın 6-da Azərbaycan Dövlət Musiqili Teatrında Bakı V Beynəlxalq Teatr Konfransına yekun vurulub. AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransın sonuncu günü plenar iclasa...



Bax səh. 4

### Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb

Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin noyabrın 5-də Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb...



Bax səh. 4

# Prezident İlham Əliyev: Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq

## *Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək öz işğalçı qüvvələrini tezliklə Azərbaycan torpaqlarından çıxarmalıdır*

*Müasir beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət, etibarlı tərəfdaş kimi tanınan, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın xarici siyasət kursunun strateji prioritetlərindən birini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli təşkil edir. Azərbaycan bu istiqamətdə qətiyyətli mövqeyini və çoxşaxəli fəaliyyətini davam etdirir. Şübhəsiz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir.*



### ERMƏNİSTANIN APREL DÖYÜŞLƏRİNDƏ DÜÇAR OLDUĞU ACI HƏRBİ MƏĞLUBİYYƏT İŞĞALÇI ÖLKƏNİN MÖHKƏM OLMAYAN SÜTUNLARINI TAMAMİLƏ SIRADAN ÇIXARDI

Əlbəttə, Azərbaycan xalqı və dövləti işğalla heç vaxt barışmayacaq. Azərbaycan istənilən halda işğal altında olan torpaqları azad edərək öz ərazi bütövlüyünü təmin edəcək. Ölkəmizin ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz və beynəlxalq hüquq normaları da Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasını tələb edir.

Digər tərəfdən, Ermənistan nəzərə almalıdır ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək iqtidarındadır. Tarixi reallıqlar və beynəlxalq hüquqi baza, eləcə də Azərbaycanın iqtisadi qüdrəti, hərbi gücü bunu deməyə əsas verir. Xüsusilə də, aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək iqtidarında olduğunu nümayiş etdirdi. Başqa sözlə, bu reallıqlar Azərbaycan dövlətinin qüdrətini, Ermənistanın isə acizliyini göstərdi. Bir daha aydın oldu ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmaq, Ermənistanın təxribatlarına dözmək niyyətində deyil və düşmənə layiqli cavab vermək iqtidarındadır. Bir sözlə, aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bir daha bəlli oldu ki, Azərbaycan Silahlı Qüvvələri qarşıya qoyulmuş istənilən vəzifəni icra etmək gücündə və əzmindədir. Ən əsası, aprel döyüşlərindən sonra əldə edilmiş diplomatik və hərbi-psixoloji üstünlük Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın mövqeyini gücləndirdi və münaqişənin beynəlxalq hüquq norma və prinsipləri əsasında həlli üçün ciddi zəmin yaratdı.

Noyabrın 5-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşdəki çıxışında bu məqama toxunan Prezident İlham Əliyev deyib: **"Aprel döyüşləri bizim barışmaz ruhumuzun təzahürüdür. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Aprel döyüşləri onu göstərdi ki, Ermənistan tərəfindən uzun illər ərzində yaradılan mif darmadağın edildi, onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir, buna hazırdır və biz bunu sübut etdik. Ermənistanın acı hərbi məğlubiyyəti onun möhkəm olmayan sütunlarını tam sıradan çıxardı. Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir".**

> *"Bu gün Azərbaycan hərbi baxımdan nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü dövlətlər sırasındadır. Biz hərbi qüdrətimizi bundan sonra da artıracağıq və hesab edirəm ki, bu, danışıqlar üçün ən vacib amillərdən biridir"*

Prezident İlham Əliyev əlavə edib ki, məhz 2016-cı ilin aprel ayında Ermənistanın işğalçı rejiminə çox böyük zərbə vuruldu və onlar öz işğalçılıq siyasətinin qurbanına çevrildilər: **"Mən dəfələrlə demişdim ki, Ermənistanı idarə edən kriminal xunta rejimi bütün dünya birliyi tərəfindən qınaq obyektinə çevrilməlidir. Mən demişdim ki, Ermənistanı idarə edən insanlar kriminal xunta rejiminin başçılarıdır. İndi bunu erməni xalqı deyir. Biz demişdik ki, onların generalları oğrudur. Biz demişdik ki, onların qəhrəmanları cinayətkardır, qorxaqdır, indi bunu erməni xalqı deyir. Yəni, biz dediyimizi indi erməni xalqı deyir və görür. Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, - bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".**

> *"Aprel döyüşləri onu göstərdi ki, Ermənistan tərəfindən uzun illər ərzində yaradılan mif darmadağın edildi, onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir, buna hazırdır və biz bunu sübut etdik. Ermənistanın acı hərbi məğlubiyyəti onun möhkəm olmayan sütunlarını tam sıradan çıxardı. Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir"*

Şübhəsiz ki, Azərbaycanın uğurlu diplomatiyası sayəsində Ermənistan dalana dirənib. Eyni zamanda, Azərbaycan işğalçı ölkəni bütün regional və beynəlxalq layihələrdən təcrid edib. Təbii ki, bu amil təcavüzkar Ermənistandakı sosial-iqtisadi və siyasi böhranın dərinləşməsini şərtləndirib. Ümumilikdə, Ermənistanın işğalçı, təcavüzkar siyasəti nəticəsində regional və beynəlxalq miqyasda təcrid vəziyyətinə düşməsi bu ölkənin gələcəyini sual altına alıb. Bu gün heç nisbi müstəqilliyə də malik olmayan, xaricdən gələn ianələrə bel bağlayan və total tənəzzülün müşahidə olunduğu Ermənistanda mövcud iqtisadi tənəzzül və xaos insanların həyat şəraitini olduqca çətinləşdirdiyi üçün ekspertlər bədbin proqnozlar ifadə edirlər. Belə bir vəziyyətdə Ermənistan anlamalıdır ki, bundan sonrakı dövrdə danışıqlar prosesini uzatmaq, mövcud status-kvonu qoruyub saxlamaq mümkün deyil. Odur ki, hazırkı şəraitdə işğalçı Ermənistan qeyri-konstruktiv mövqedən, işğalçı-təcavüzkar siyasətdən əl çəkməlidir.

### ERMƏNİSTANIN YENİ RƏHBƏRLİYİ ƏVVƏLKİ KRİMİNAL REJİMİN SƏHVLƏRİNİ TƏKRAR ETMƏMƏLİDİR

Ermənistanın yeni rəhbərliyi reallıqları dərk edərək doğru nəticələr çıxarmalı, yəni əvvəlki hərbi xunta rejiminin yanlışlarını təkrar etməməlidir. Ermənistanın rəhbərliyi anlamalıdır ki, sülh prosesinə zərbə vurmağa hesablanmış mövqe və yanaşma ilə münaqişənin beynəlxalq hüquq normalarına əsasən ədalətli həllinə mane ola bilməzlər. Bu gün bütün regional layihələrdən təcrid olunan - bölgədə blokada vəziyyətində olan Ermənistanın düşdüyü mürəkkəb durumun səbəbi bu ölkənin işğalçılıq siyasətidir. Artıq Ermənistanın bir sıra dairələri mövcud hakimiyyətin işğalçılıq siyasətindən imtina etməsini yeganə çıxış yolu kimi göstərirlər. Diqqətə çatdırılır ki, mövcud reallıqlar, o cümlədən 2016-cı ilin aprel döyüşlərinin nəticələri Ermənistanda ideoloji əsasları dağıtmaqla yanaşı, bu ölkənin işğalçılıq siyasətindən əl çəkməsinin zəruriliyini bir daha nümayiş etdirdi.

Əlbəttə, Azərbaycan qətiyyətli - prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcək. Ermənistan danışıqlar prosesini yenə də uzatmağa cəhd edərsə, Azərbaycan təcrid siyasətini davam etdirəcək. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı qeyd edib ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpağına qayıtsınlar: **"Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar, bölgə üçün yaxşı olar. Bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə barışmaq fikrində deyilik, beynəlxalq hüququn normaları bizim mövqeyimizi tam dəstəkləyir, tarixi ədalət bizim tərəfimizdədir".**

### BÜTÜN DİPLOMATİK CƏBHƏLƏRDƏ UDUZMAQDA DAVAM EDƏN İŞĞALÇI ERMƏNİSTANIN REGİONDA TƏCRİD VƏZİYYƏTİ DƏRİNLƏŞİR

O da qeyd edilməlidir ki, Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Bütün bunların qanunauyğun nəticəsidir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir. Başqa sözlə, beynəlxalq ictimaiyyət tərəfindən son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin və daha da güclənməsinin növbəti göstəricisidir. Bu kontekstdə bir sıra məqamlara nəzər salmaq məqsədəmüvafiqdir.

Məlum olduğu kimi, 30 oktyabr tarixində İstanbulda keçirilən Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin altıncı üçtərəfli görüşünün nəticəsi kimi İstanbul bəyannaməsi qəbul edilib. Üç ölkənin xarici işlər nazirləri tərəfindən imzalanmış bəyannamədə beynəlxalq hüququn prinsipləri, xüsusilə də suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həllinə dair qəti və prinsipial mövqe bir daha ifadə olunub. Bundan bir gün əvvəl İstanbulda keçirilmiş Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşünün nəticəsi olaraq qəbul edilmiş yekun bəyanatda da dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət və qəti dəstək bir daha bəyan edilib, tərəflər fiziki və hüquqi şəxslərin fəaliyyətlərinin bu prinsiplərlə tam uyğun olmasına dair razılıqlarını ifadə ediblər. Bəhs olunan bəyanatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, həmçinin BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamələri, bəyanatları və qərarlarına uyğun olaraq həllinə nail olmağın əhəmiyyəti vurğulanıb, bütün qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarına təhlükəsiz və ləyaqətli qayıdışının zəruriliyi bildirilib. Şübhəsiz ki, bu bəyanatlarda region dövlətləri, xüsusilə İran tərəfindən açıq-aşkar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunması və münaqişənin məhz bu prinsiplər əsasında həllinə çağırış edilməsi mühüm əhəmiyyətə malikdir.

> *"Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, - bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik"*

Xatırladaq ki, bundan əvvəl ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu bildirmişdi. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton isə bu ölkədə olan zaman sanki Azərbaycanın mövqeyini təkrarladı. Realist siyasətçi olan Con Bolton bildirdi ki, əgər Ermənistan dayanıqlı inkişafa nail olmaq istəyirsə, qonşu dövlətlərlə normal münasibətlər qurmağı bacarmalıdır. Yəni Ermənistanın çıxış yolu bundan ibarətdir. Əlbəttə, bütün bunlar region dövlətlərinin və beynəlxalq ictimaiyyətin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməsinin bariz nümunəsidir.

İşğalçı siyasətini davam etdirən Ermənistanın isə regionda təcrid vəziyyəti dərinləşir, təcavüzkar ölkə bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Bəllidir ki, işğalçı ölkə yürütdüyü destruktiv siyasət nəticəsində qonşu dövlətlərlə və beynəlxalq ictimaiyyətlə münasibətlərdə hərtərəfli gərginliyə malikdir. Bunun nəticəsidir ki, Ermənistanın qonşu və region dövlətləri, o cümlədən aparıcı dövlətlər və güc mərkəzləri ilə münasibətləri iflasa uğrayıb. Bu kontekstdə bir sıra nüanslara nəzər yetirək. Əvvəla, Ermənistanın iddialarına baxmayaraq, Rusiya Paşinyan rejiminə inanmır. Tərəflər arasında münasibətlərdə həm gərginlik, həm də etimadsızlığın hökm sürməsi reallıqdır. Avropa İttifaqının (Aİ) isə Nikol Paşinyanı ciddi siyasətçi kimi qəbul etmədiyi aşkardır. Ona görə də Aİ daha çox gözləmə mövqeyi tutmaqdadır. 2017-ci ildə Serj Sarkisyanın hakimiyyəti dövründə Aİ Ermənistanda seçkilərin keçirilməsi üçün 7 milyon avro ayırdığı halda, Paşinyana ianə olaraq ayrılan məbləğ cəmi 3 milyon avro həcmindədir. Bu ilin yayında Paşinyanın Brüsseldə olan zaman Avropa İttifaqından əvəzsiz yardım formasında bir milyard avro tələb etməsi hələ də Aİ kuluarlarında gülüş obyektidir. Bütövlükdə isə, iflasa düçar olan, manevr imkanları tükənən Ermənistanın xilas yolu işğalçı siyasətdən əl çəkməkdir.

> *"Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək"*

Qeyd etdiyimiz kimi, öz işğalçı siyasəti səbəbindən regiondakı bütün layihələrdən kənarda qalan Ermənistan indi ciddi siyasi, iqtisadi problemlərlə qarşı-qarşıyadır. İşğalçı ölkədə siyasi müstəvidə hökm sürən gərginlik, xarici siyasətin tamamilə iflasa uğraması iqtisadi problemləri daha da kəskinləşdirməklə yanaşı, bütün sahələrin faktiki iflasını şərtləndirib. Buna paralel olaraq ictimai-siyasi kataklizmlər daha da güclənməkdədir. Mövcud reallıqlar Ermənistanın yeni siyasi kataklizmlərə sürükləndiyini göstərir. Əlbəttə, sadalanan faktlar fonunda Ermənistanın yeganə çıxış yolu işğalçı siyasətdən əl çəkməkdir və Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərindən qoşunlarını dərhal çıxarmalıdır. İşğalçı ölkənin başqa çarəsi yoxdur.

Ermənistan rəhbərliyi həm də unutmamalıdır ki, Azərbaycan işğal altında olan torpaqlarını azad etmək iqtidarındadır. Qeyd etdiyimiz kimi, məhz aprel döyüşləri və Naxçıvan əməliyyatı da bunu nümayiş etdirdi. Dövlətimizin başçısı bu məqamlara toxunaraq deyib: **"Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Bu il Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan istiqamətində apardığımız uğurlu əməliyyat nəticəsində on min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyət daşıyan yüksəkliklər bizim nəzarətimizə keçdi. Biz indi strateji kommunikasiyalara, yollara, o cümlədən Ermənistan ərazisindəki yollara, Dağlıq Qarabağa gedən kommunikasiyalara tam nəzarət edirik".**

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bütün bu amillər onu göstərir ki, bizim iradəmiz də, gücümüz də var: **"Bu gün Azərbaycan hərbi baxımdan nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü dövlətlər sırasındadır. Biz hərbi qüdrətimizi bundan sonra da artıracağıq və hesab edirəm ki, bu, danışıqlar üçün ən vacib amillərdən biridir. Çünki, əfsuslar olsun, beynəlxalq hüququn normaları tamamilə kənara qoyulur. Biz istədiyimizə nail olacağıq. Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək, öz işğalçı qüvvələrini tezliklə bizim torpaqlarımızdan geri çağıracaqdır. Əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq".**

Bütövlükdə, Ermənistanın indiki rəhbərliyi regional və beynəlxalq reallığı düzgün dərk edib nəticə çıxarmalıdır. Əks halda, işğalçı ölkənin iflası və təcrid vəziyyəti daha da dərinləşəcək. Bu ölkənin siyasi, iqtisadi, sosial, demoqrafik və diplomatik böhrandan çıxmasının yeganə yolu işğal siyasətinə son qoyması, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmasıdır. Azərbaycan isə bütün hallarda öz ərazi bütövlüyünü bərpa edəcək.

**Nurlan QƏLƏNDƏRLİ**

# Muğam Azərbaycanın milli sərvətidir

**Prezident İlham Əliyev:** *Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir*

*Son illərdə respublikamızda gözəl ənənə formalaşıb. Belə ki, Prezident İlham Əliyevin regionlara mütəmadi hal alan səfərləri zamanı bir qayda olaraq, bölgələrdə çoxsaylı infrastruktur qurğuları ilə yanaşı, mədəni təyinatlı obyektlər də yerli sakinlərin istifadəsinə verilir. Milli memarlıq ənənələri nəzərə alınmaqla yüksək standartlar səviyyəsində inşa olunan belə obyektlər bütün ölkə üzrə mədəni mühitin canlanmasına, insanların milli mədəniyyətimizə bağlılığının daha da möhkəmlənməsinə, tarixdən gələn ənənələrin yaşadılmasına və daha da zənginləşdirilməsinə öz müsbət təsirini göstərir.*

*Xəbər verildiyi kimi, 2018-ci il 5 noyabr tarixində Azərbaycanın dövlət başçısının regionlara növbəti səfəri çərçivəsində daha bir mədəni təyinatlı obyekt - Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.*



### MİLLİ MƏDƏNİYYƏTİMİZİN MÜHÜM TƏRKİB HİSSƏSİ OLAN MUĞAMIN İNKİŞAFINA VƏ TƏBLİĞİNƏ DÖVLƏT SƏVİYYƏSİNDƏ BÖYÜK DİQQƏT GÖSTƏRİLİR

Məlum olduğu kimi ölkəmizdə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan milli mədəniyyətimizə dövlət səviyyəsində yüksək qayğı göstərilməsi siyasəti son 15 ildə də eyni ardıcıllıqla davam etdirilməkdədir. Belə ki, Prezident İlham Əliyev mütəmadi olaraq mədəniyyət və incəsənət xadimləri ilə görüşlər keçirir, onları narahat edən məsələlərlə maraqlanır. Eyni zamanda, son illərdə dövlət başçısının imzaladığı müvafiq sərəncamlarla ayrı-ayrı mədəniyyət ocaqlarında yüksək səviyyədə yenidənqurma işlərinin həyata keçirilməsinə və onların maddi-texniki bazasının möhkəmləndirilməsinə lazımi qədər maliyyə vəsaiti ayrılıb. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq muğam sənətinin qorunması və təbliği məqsədilə görülən tədbirlər isə respublikamızda milli mədəniyyətimizə yüksək səviyyədə dövlət qayğısı göstərildiyini bir daha təsdiqləyir.

Ümumiyyətlə, muğam Azərbaycanda çox sevilən sənət növüdür. Dərin və heyrətamiz fəlsəfə ilə zəngin olan, ana laylası kimi ruhumuza qida verən muğamlarımız hər bir azərbaycanlının düşüncəsində və qəlbində əbədi yer tutur. Muğam sənətinə yüksək dəyər verən xalqımız onu tarix boyu yaşadaraq, müxtəlif təhlükələrdən qoruyaraq nəsillərdən-nəsillərə çatdırıb və daim yeni çalarlarla zənginləşdirib. Bu gün qürur hissi ilə deyə bilərik ki, muğam Azərbaycan xalqının milli sərvəti olmaqla yanaşı son dərəcə zəngin bir mənəvi xəzinədir, bənzərsiz sənət növüdür. Prezident İlham Əliyev yeni istifadəyə verilən Muğam Mərkəzi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşdəki çıxışında ilə vurğulayıb ki, muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Muğamın Azərbaycanda dərin köklərə malik olduğunu nəzərə çatdıran dövlət başçısı **“Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir”,** - deyə bildirib.

Vurğulamaq yerinə düşər ki, Azərbaycanda xalqımızın mənəvi tellərlə sıx bağlı olduğu muğam sənətinin qorunması və yüksək səviyyədə təbliği məqsədilə dövlət səviyyəsində həyata keçirilən tədbirlərin miqyası kifayət qədər genişdir. Məhz görülən tədbirlər sayəsində muğam sənətimiz layiq olduğu yüksək zirvəyə yüksəlib. Prezident İlham Əliyev respublikamızda muğam sənətinə göstərilən hərtərəfli qayğıdan bəhs edərək vurğulayıb: **“Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi”.**

Respublikamızda muğam sənətinin qorunması və yüksək səviyyədə təbliği məqsədilə görülən tədbirlər sırasında muğam mərkəzlərinin yaradılmasının önəmini xüsusi qeyd edə bilərik. 2008-ci il dekabrın 27-də Bakıda dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzi istifadəyə verilib. Bəhs olunan möhtəşəm Beynəlxalq Muğam Mərkəzinin inşası Prezident İlham Əliyevin imzaladığı 2005-ci il 6 aprel tarixli müvafiq Sərəncamı əsasında reallaşıb.

Eyni zamanda, regionlarda da bir neçə muğam mərkəzi yaradılıb. Bakıda istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi ilə yanaşı, 2008-ci ildə Ağcabədidə, 2010-cu ildə Füzulidə inşa olunan Muğam mərkəzləri də ölkəmizdə muğamın inkişafında mühüm rol oynayıb. Gözəl memarlıq nümunəsi olan Ağdam Muğam Mərkəzinin inşasına isə 2016-cı ilin oktyabrında başlanılıb. İnşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Muğam Mərkəzinin ərazisi 7782 kvadratmetr, tikintialtı sahəsi isə 1800 kvadratmetrdir. İkimərtəbəli bina yüksək zövqlə müasir səviyyədə inşa olunub.

### MUĞAM SƏNƏTİNİN BEYNƏLXALQ MİQYASDA GENİŞ TƏBLİĞ OLUNMASINDA HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVANIN MÜSTƏSNA XİDMƏTLƏRİ VAR

Respublikamızın görkəmli musiqiçiləri və incəsənət xadimləri çox haqlı olaraq vurğulayırlar ki, bu gün yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan mədəniyyəti Mehriban xanım Əliyevanın timsalında öz böyük himayədarını tapıb. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinə qayğısından söhbət açarkən onun muğam sənətinə göstərdiyi diqqəti xüsusi qeyd etmək lazımdır. Muğam sənətinin layiq olduğu yüksək zirvəyə yüksəlməsində və beynəlxalq miqyasda geniş təbliğ olunmasında Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Bu məqama diqqət çəkən Prezident İlham Əliyev **“Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir”,** - deyə bildirib.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun bir sıra dövlət qurumları ilə birgə təşkil etdiyi Respublika muğam müsabiqəsi və 2009-cu ildən keçirilən Beynəlxalq Muğam Festivalı həm Azərbaycanda muğam sənətinə üz tutan gənclərin sayını xeyli artırıb, həm də milli muğam musiqimizi dünyaya tanıdıb.

Heydər Əliyev Fondu 2005-ci ildən “Azərbaycan muğamları” layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində 24 virtuoz muğam ustadının ifaları toplanmış “Qarabağ xanəndələri” musiqi albomu böyük maraqla qarşılanan ilk və uğurlu iş olub. Fond tərəfindən 2008-ci ildə hazırlanan “Muğam ensiklopediyası” qədim musiqi irsimizin qorunması və inkişafı yolunda sanballı nəşr kimi dəyərləndirilir. Heydər Əliyev Fondunun muğamın qorunması və təbliği istiqamətindəki növbəti uğurlu layihələri “Azərbaycan muğamı” interaktiv audiovizual multimedia toplusu və “Muğam aləmi” nəşridir.

Fondun “Azərbaycan muğamları” layihəsi çərçivəsində tədris vəsaiti kimi təqdim olunan “Azərbaycan muğamı” multimedia toplusu musiqi irsimizin ən qiymətli incisi olan muğamın növlərini, janrlarını, mənşəyini, quruluşunu, musiqi məzmununu və kompozisiya xüsusiyyətlərini ətraflı şərh edir. “Azərbaycan muğamı” interaktiv audiovizual multimedia toplusu 8 diskdən ibarətdir. Toplu Azərbaycan və ingilis dillərində hazırlanıb.

“Muğam aləmi” toplusu isə Azərbaycan, rus, ingilis dillərindəki kitab və Azərbaycan muğam operalarının, simfonik muğamların, klassik Azərbaycan muğamlarının, tanınmış xarici musiqiçilərin çıxışlarının və etnocaz nümunələrinin toplandığı 33 DVD-dən ibarətdir.

Ağdam Muğam Mərkəzinin yaradılması da Heydər Əliyev Fondunun muğam sənətinin qorunması, inkişaf etdirilməsi və təbliği məqsədilə gördüyü böyük işlərin tərkib hissəsidir. Ümumiyyətlə, Fondun bu istiqamətdə reallaşdırdığı layihələrin sayı kifayət qədər çoxdur. Prezident İlham Əliyev Mehriban xanım Əliyevanın apardığı məqsədyönlü fəaliyyətin nəticəsi olaraq muğamın UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsini tarixi hadisə kimi səciyyələndirib. Bununla bağlı fikirlərini ifadə edən dövlət başçısı deyib: **“Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiridir və Azərbaycan muğamını səfir kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etdirmişdir. Bu da tarixi hadisədir, hesab edirəm ki, sözün əsl mənasında, tarixi hadisədir”.**

### MUĞAM AZƏRBAYCAN DİLİNİN SAFLIĞINI QORUYAN SƏNƏTDİR

Muğama yalnız musiqi janrı kimi yanaşmaq düzgün olmazdı. Tarixin süzgəcindən keçən, gözəl musiqi ahənginə malik olan muğamlarda xalqımızın yaşam fəlsəfəsi əks olunub. Eyni zamanda, muğamlarımızda dilimizin zənginliyi ifadə olunur. Prezident İlham Əliyev diqqəti muğamların dilimizin saflığının qorunmasında da müstəsna rol oynadığına çəkərək bildirib: **“Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir”.**

Bu məqamda vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyev 2018-ci il 1 noyabr tarixində “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman imzalayıb. Məlumdur ki, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dili cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində daha geniş istifadə edilməyə başlanıb, onun dövlət dili kimi maneəsiz inkişafı üçün münbit zəmin yaradılıb. Prezident İlham Əliyevin imzaladığı çoxsaylı sərəncamlar, təsdiqlənən Dövlət proqramları Azərbaycan dilinin elektron məkanda, həmçinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini təmin edib.

Bununla belə, Prezident İlham Əliyevin Özünün də dediyi kimi, yuxarıda bəhs olunan Fərmanın imzalanmasına da ehtiyac yaranmışdı. Azərbaycan dili dünyanın ən zəngin dillərindən biridir. Azərbaycan ədəbiyyatı bunu əyani şəkildə təsdiqləyir. Dilimiz o qədər zəngindir ki, istənilən fikri bu dildə çox gözəl şəkildə ifadə etmək mümkündür. Ancaq hazırda dünyada gedən qloballaşma və digər proseslər istər-istəməz dilimizə də təsirsiz ötüşmür, bəzən ehtiyac olmadığı halda dilimizdəki bu və ya digər sözlər başqa dillərə məxsus sözlərlə əvəzlənir. Buna isə heç bir lüzum yoxdur. Biz öz dilimizin saflığını qorumağa çalışmalıyıq. Yuxarıda bəhs olunan Fərman da məhz bu məqsədə xidmət edir. Fərmanda Azərbaycan dilinin saflığının qorunmasını və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə bir sıra zəruri tədbirlərin görülməsi nəzərdə tutulub.

**Mübariz ABDULLAYEV**

# Ankaradakı Heydər Əliyev Bağında ağacəkmə aksiyası keçirilib

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Fidanlar fidanlarla böyüyür!” şüarı altında təşkil olunan aksiyada iştirak edib*





Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Batıkent rayonunun Uğur Mumcu məhəlləsində yerləşən Heydər Əliyev Bağında təşkil olunan ağacəkmə aksiyasında iştirak edib və ağac əkib.

AZƏRTAC xəbər verir ki, “Fidanlar fidanlarla böyüyür!” şüarı altında keçirilən tədbirdə Türkiyənin dövlət və hökumət nümayəndələri, Ankara ictimaiyyətinin tanınmış simaları, səfirlər, deputatlar, o cümlədən məktəblilər iştirak ediblər.

Ağacəkmə aksiyası ilə bağlı Heydər Əliyev Bağında böyük izdiham yaşanıb.

Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış edib.

Ədalət və İnkişaf Partiyası (AKP) tərəfindən həyata keçirilən yaşıllaşdırma siyasətinin davamı olan “Fidanlar fidanlarla böyüyür!” layihəsinin əhəmiyyətindən danışan Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, bu gün Türkiyənin 81 vilayətində 10 milyon ağac əkiləcək. Dövlət başçısı qeyd edib ki, Türkiyə yaşıllaşdırma işləri ilə dünyada meşəlik sahələrini genişləndirən nadir ölkələrdən birinə çevrilib. AKP hakimiyyəti 16 ildə 4 milyard 70 milyon ədəd ağac əkib. Bu sayı 7 milyarda çatdırmaq hədəflənir.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev Bağı Ulu öndərimizin şərəfli ömür yoluna ehtiram olaraq salınıb və burada hər il 1000 ağac əkilir. Heydər Əliyev Bağı Türkiyə paytaxtının ən gözəl guşələrindən birində yerləşir. İnsanlar bu ərazidə xoş istirahət edirlər. Bu bağ Ankarada azərbaycansevərlərin ən çox ziyarət etdikləri məkana çevrilib.

# Kaliforniyanın Monterey şəhəri Azərbaycan bayrağı ilə bəzədilib

*Noyabrın 9-u şəhərdə Azərbaycan Dövlət Bayrağı Günü elan edilib*






ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərində Azərbaycanın Dövlət Bayrağının 100 illiyi qeyd edilib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşəbbüsü ilə Monterey şəhərinin mərkəzində yerləşən Alvarado küçəsi Azərbaycan bayraqları ilə bəzədilib.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat veriblər.

Bildirilib ki, noyabrın 9-u Montereydə Azərbaycanın Dövlət Bayrağı Günü elan edilib. Bununla bağlı şəhər meri Klayd Roberson tərəfindən müvafiq bəyannamə imzalanıb.

Ölkəmizin Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 28 may tarixində müstəqilliyini elan edərək müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, həmin respublikanın qısa müddətdə böyük sayda mütərəqqi islahatlara imza atdığı, müsəlman dünyasında ilk dəfə qadınlara səsvermə hüququnun verdiyi vurğulanır. Həmçinin bu respublikanın ABŞ və digər demokratik dövlətlər tərəfindən tanındığı qeyd olunur.

Sənəddə bildirilir ki, 1918-ci ilin 9 noyabr tarixində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilən göy, qırmızı və yaşıl rənglərdən ibarət üçrəngli bayraq 1991-ci ildə yenidən müstəqilliyini əldə edən Azərbaycanın dövlət bayrağı elan olunub.

Bəyannamədə qeyd olunur ki, ABŞ-ın müttəfiqi və strateji tərəfdaşı olan Azərbaycan beynəlxalq səviyyədə müsəlman, xristian və yəhudilərin birgə sülh və harmoniya şəraitində yaşadığı uğurlu ölkə modeli kimi tanınır. Bundan başqa, Monterey şəhərinin 2011-ci ildə Azərbaycanın Lənkəran şəhəri ilə qardaşlaşdığı diqqətə çatdırılır.

Bəyannamənin sonunda mer K.Roberson şəhər şurası və şəhər əhalisi adından 2018-ci il 9 noyabr tarixini Monterey şəhərində Azərbaycanın Dövlət Bayrağı Günü elan edir və bütün şəhər sakinləri bu bayramı qeyd etməyə dəvət olunur.

# İspaniyada “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda beynəlxalq konfrans işini davam etdirib



İspaniyanın paytaxtı Madriddə “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda beynəlxalq konfrans noyabrın 5-də günün ikinci yarısında işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, minə yaxın nümayəndənin iştirak etdiyi tədbirin ikinci hissəsi bədii proqramla başlayıb. Bədii hissədə Azərbaycanın xalq mahnısı “Sarı gəlin” ifa edilib.

Evsen Fondunun rəhbəri Əli Evsen tədbirdə çıxış edərək bildirib ki, bu gün insanların qarşısında duran əsas vəzifə gələcək nəsillər üçün daha etibarlı, daha parlaq gələcək qurmaqdır. Bunun üçün isə dinlərarası və sivilizasiyalararası dialoqu inkişaf etdirmək lazımdır. Gənclərimizin ziyanlı təsirlərə düşməsinin qarşısını almalı, onları doğru yola yönəltməliyik.





İspaniya Ədliyyə Nazirliyinin nümayəndəsi Pablo Kasado dialoq və qarşılıqlı anlaşmanın dünyamızdakı problemlərin həlli baxımından çox önəmli olduğunu bildirib. O, din xadimlərinin bu işdə daha yaxından iştirakının vacibliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə deyib ki, tarixboyu Şərq ilə Qərb arasında İslam dünyasının əsas mədəni, dini, sivilizasiya mərkəzlərindən olan Azərbaycan multikulturalizmə, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa, İslam mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verib. Bu gün də multikultural Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətimizin diqqət və himayəsindən yararlanırlar.





**“Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranı yaşandığı müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında birləşməyə çağırır, multikulturalizm və İslam həmrəyliyi ideyalarının dövlət siyasətinin prioritet istiqamətləri olmasını bəyan edir. Bütün dünyaya çağırış olaraq ölkəmizdə “Multikulturalizm” və “İslam Həmrəyliyi” illərinin elan olunması Azərbaycan Prezidentinin XXI əsrdə həyata keçirdiyi müdrik təşəbbüslərdir. Bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, qlobal hərəkata çevrilmiş “Bakı Prosesi”nə rəhbərlik edir. Qafqaz Müsəlmanları İdarəsinin yanında “Dialoqdan həmrəyliyə: dinlər və sivilizasiyalararası əməkdaşlıq” mərkəzinin təsis edilməsi bu ənənənin davamı kimi dəyərləndirilməlidir. Yeri gəlmişkən, Azərbaycan dövləti İspaniyanın həmtəşəbbüsçüsü olduğu Sivilizasiyaların Alyansı ideyasına da böyük önəm verir və bunun bariz nümunəsi BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etməyimiz oldu. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.**

**Biz din xadimləri dünyada baş verən hadisələrə ilahi ədalət və insani dəyərlər baxımından qiymət veririk. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının Pitsburq şəhərindəki sinaqoqda və Misirdə qibti zəvvarlara qarşı törədilmiş terror aktları din xadimləri tərəfindən ilahi dəyərlərin pozulması kimi səciyyələnir. Bu siyahıya Azərbaycan ərazisinin bir hissəsinin uzun illərdir davam edən işğalını, Xocalı şəhərində soyqırımı törədilməsini, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsini, zəbt olunmuş ərazilərimizdə məscid, kilsə, sinaqoq və qəbiristanlıqların məhv edilməsini əlavə etmək istəyirəm. Bu gün dünya belə cinayətlərə göz yumarsa, gələcəyini də itirə bilər. Halbuki Allah-Təala bizə xeyir əməllərdə, savab işlərdə bərabər olmağı, birgə fəaliyyət göstərməyi əmr edib”,** - deyə şeyxülislam Allahşükür Paşazadə bildirib.

QMİ sədri sivilizasiyalararası dialoqa əməli töhfələr verən İspaniya dövlətinə və hökumətinə bu tədbirə verdiyi dəyərə görə təşəkkür edib.

İsrailin keçmiş Prezidenti Dalia İtzik deyib ki, dünyada sülhün təmin edilməsi hər birimizin borcudur. Bu baxımdan bütün insanlar əl-ələ verməli, birgə çalışmalıdırlar.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına məktubu oxunub.

Məktubu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov oxuyub.

Məktubda deyilir ki, mədəniyyətlər və dinlər arasında dialoq dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında bu sahədə ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyətinə bərabər şəraitin yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer tutur. Azərbaycan tarixən fərqli sivilizasiyaların qovuşuğunda oynadığı mənəvi körpü rolunu bu gün də uğurla həyata keçirir. Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bununla bağlı çoxsaylı qlobal təşəbbüslər irəli sürür, müntəzəm olaraq Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlar təşkil edir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və Dünya Dinləri Liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi beynəlxalq birliyin Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdiyini göstərir. Dövlətimizin başçısı əmin olduğunu bildirir ki, ənənəvi xarakter almış Madrid beynəlxalq konfransında aparılan müzakirələr və irəli sürülən səmərəli təkliflər dünyada dinlərarası dialoqun təşviqinə, sülhə və qarşılıqlı anlaşmaya dəyərli töhfələr verəcək.

Sonra İspaniyanın Kralı VI Felipenin konfrans iştirakçılarına məktubu oxunub.

Daha sonra konfransın yekun Bəyannaməsi qəbul edilib.

Sonda tədbir iştirakçılarının şərəfinə ziyafət verilib.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Madriddə İspaniya Senatının sədri ilə görüşüb



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə İspaniyanın paytaxtı Madriddə “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda beynəlxalq konfrans çərçivəsində İspaniya Senatının sədri Pio Qarsia Eskudero ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, QMİ sədri konfransın keçirilməsində göstərdiyi dəstəyə görə İspaniya hökumətinə təşəkkür edib. Bildirib ki, Azərbaycan ilə İspaniya arasındakı mövcud münasibətlər gələcəkdə də bu kimi tədbirlərin keçiriləcəyini deməyə əsas verir.

Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını İspaniya Senatının sədrinə və ispan xalqına çatdırıb və onu Azərbaycana dəvət edib.

Senatın sədri Pio Qarsia Eskudero “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda beynəlxalq konfransın xalqlarımız arasında münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olacağına inandığını bildirib.

Görüşün sonunda Senatın sədrinə xatirə hədiyyəsi təqdim olunub.

# Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın iclası keçirilib

Dövlət Miqrasiya Xidməti (DMX) yanında İctimai Şuranın iclası keçirilib.

DMX-dən AZƏRTAC-a bildiriblər ki, iclasda Xidmətin rəisi Vüsal Hüseynov Prezident İlham Əliyevin tapşırığına əsasən miqrasiya sahəsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlərin tam şəffaflaşdırılması və vətəndaş məmnunluğuna nail olunması üçün həyata keçirilən tədbirlər, görülən işlər barədə məlumat verib. Bildirilib ki, respublikamızda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının qorunması, qanunsuz miqrasiyaya qarşı mübarizə, vətəndaşsızlıq hallarının aradan qaldırılması istiqamətində mühüm addımlar atılır.



Xidmətin keyfiyyətinin artırılmasında ictimai nəzarətin əhəmiyyətini vurğulayan V.Hüseynov İctimai Şura ilə səmərəli əməkdaşlığa xüsusi önəm verildiyini qeyd edib. Xidmət rəisi DMX-nin əsas prioriteti kimi müraciət edənlərin məmnunluğunun təmin olunmasına, operativlik, şəffaflıq prinsiplərinin daha mükəmməl şəkildə reallaşdırılmasına İctimai Şuranın bundan sonra da töhfə verəcəyini diqqətə çatdırıb.

Sonra Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvləri fikir və təkliflərini bildiriblər.

Şura tərəfindən respublikamızda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının genişləndirilməsi, onların qanuni mənafelərinin daha mükəmməl qorunması, miqrasiya proseslərinin tənzimlənməsi və miqrasiya proseslərinin təkmilləşdirilməsi məqsədilə hazırlanmış təkliflər geniş müzakirə olunub.

# Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb

Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin noyabrın 5-də Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb.




AZƏRTAC xəbər verir ki, Misirin Yaxın Şərq Xəbərlər Agentliyi, “Asiya al Youm”, “Al Omah”, “Geytnyusnau” və digər nəşrləri konfransa və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun həmin tədbirdəki çıxışından fikirlərə geniş yer verib. Qeyd edilir ki, nazir Azərbaycanın Fələstin xalqının sülh, sabitlik və dayanıqlı inkişafa nail olmaq yolunda mübarizəsini davamlı şəkildə dəstəklədiyini bildirib. O, Azərbaycanın Fələstin məsələsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini davamlı olaraq dəstəklədiyi vurğulayıb.

Yazılarda ölkəmizin Fələstinlə bağlı bir sıra beynəlxalq tədbirlərə, o cümlədən keçən il BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının tətbiqi üzrə komitəsinin, humanitar məsələlərin əlaqələndirilməsi üzrə ofisinin, İslam Əməkdaşlıq Təşkilatının (İƏT), vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qüds məsələsi üzrə beynəlxalq konfransa ev sahibliyi etdiyi diqqətə çatdırılıb. Azərbaycanın Fələstin xalqının çətin günlərində hər zaman onun yanında olduğunu və İslam həmrəyliyinə sadiq qaldığını deyən nazir ciddi maliyyə çətinlikləri ilə üzləşən Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə ölkəmizin cari ilin oktyabr ayında 200 min ABŞ dolları məbləğində yardım etdiyini bildirib.

Ərəbdilli oxucuların diqqətinə çatdırılır ki, nazir konfrans iştirakçılarına Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və onun nəticələri barədə də məlumat verib.

Məqalələrdə, həmçinin Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikinin Fələstin xalqının sülh uğrunda mübarizəsində göstərdiyi davamlı dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür etdiyi vurğulanır.

# Bakı V Beynəlxalq Teatr Konfransına yekun vurulub





Noyabrın 6-da Azərbaycan Dövlət Musiqili Teatrında Bakı V Beynəlxalq Teatr Konfransına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransın sonuncu günü plenar iclasa AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun “Teatr, kino və televiziya” şöbəsinin müdiri Vidadi Qafarov (Azərbaycan) və Anadolu Universitetinin professoru Ebru Gökdağ (Türkiyə) moderatorluq ediblər.

Bakı Beynəlxalq Teatr Konfransının icraçı katibi Şaiq Səfərov bağlanış nitqində Bakı V Beynəlxalq Teatr Konfransına göstərilən dəstəyə görə Azərbaycan dövlətinə, Mədəniyyət Nazirliyinə və ABŞ, Kanada, Meksika, Almaniya, Fransa, İtaliya, Avstriya, Serbiya, Yunanıstan, Slovakiya, Sloveniya, Bolqarıstan, Türkiyə və digər ölkələrdən olan mədəniyyət, incəsənət, elm xadimləri iştirakçılarına təşəkkürünü bildirib.

Şaiq Səfərov qeyd edib ki, “XXI əsr teatr fəlsəfəsi: mövcudluq konsepsiyası” adı altında keçirilən konfrans Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb.

Konfrans Prezident İlham Əliyevin 2009-cu il 18 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı”na əsasən keçirilir. Builki konfransda 40-dan çox ölkədən 110 xarici qonaq iştirak edib. Məruzəçilər arasında nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri yer alıb.

Şaiq Səfərov konfrans iştirakçılarını “YARAT” Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə keçiriləcək beynəlxalq festivala dəvət edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Milli Məclis komitələrinin birgə iclasında 2019-cu ilin büdcə zərfinin müzakirəsi davam edib

## *2019-cu ildə dövlət büdcəsindən sosial məqsədlərə 8 milyard 265,8 milyon manat vəsaitin ayrılması proqnozlaşdırılır*





Noyabrın 6-da Milli Məclisin Əmək və sosial siyasət, Səhiyyə, Mədəniyyət, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.

AZƏRTAC xəbər verir ki, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli dünyada gedən bütün proseslərə rəğmən ölkəmizdə Ulu öndər Heydər Əliyevin yaratdığı sosial sabitlik bazasında sosial rifahın hökm sürdüyünü deyib. Bildirib ki, son 10 ildə Azərbaycanda sosial məqsədlərə ayrılan vəsaitlərin həcmi daim intensiv olaraq artıb.

Komitə sədri deyib ki, gələn ilin dövlət büdcəsində sosial sahəyə ayrılan vəsaitlərin həcmi bütövlükdə artıb, əhalinin rifah halının yaxşılaşmasına xidmət edən maraqlı məsələlər ortaya qoyulub.

Büdcədə təklif edilən yeniliklərdən danışan Hadi Rəcəbli qeyd edib ki, sosial müdafiə sistemində yeni institut formalaşıb. Azərbaycanda bu sahədə ardıcıl islahatlar aparılır və bu islahatlardan biri də Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yaradılmasıdır.

Komitə sədri bildirib ki, gələn il dövlət büdcəsindən sosial məqsədlərə 8 milyard 265,8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da büdcənin 33,4 faizini təşkil edir.

Maliyyə nazirinin birinci müavini İlqar Fətizadə bildirib ki, 2019-cu ilin dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanundan, Azərbaycan Respublikasının milli iqtisadiyyatının başlıca sektorları üzrə Strateji Yol Xəritəsindən irəli gələn tələblər, habelə dünya və Azərbaycan iqtisadiyyatında gözlənilən meyillərin təhlili əsasında formalaşıb. Büdcənin sabitliyi və ortamüddətli dayanıqlılığının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. 2019-cu il dövlət büdcəsinin tərtibatından başlayaraq növbəti illərin dövlət və icmal büdcələri yeni qəbul olunmuş büdcə qaydasına müvafiq olaraq hazırlanacaq.

Maliyyə nazirinin birinci müavini qeyd edib ki, bu amillərlə yanaşı, proqnozlaşdırma zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hazırladığı 2019-2022-ci illər üzrə ölkənin makroiqtisadi proqnoz göstəriciləri və gözlənilən iqtisadi meyillər, o cümlədən 2019-cu ildə ümumi daxili məhsulun 3,6 faizlik, qeyri-neft sektorunda isə 3,9 faizlik real artım sürəti nəzərə alınıb, dövlət büdcəsi və Dövlət Neft Fondunun gəlirlərinin hesablanmasında bir barel xam neftin satış qiyməti 60 ABŞ dolları səviyyəsində qəbul edilib. Bütövlükdə dünya iqtisadiyyatında cərəyan edən proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsirinin qarşısının alınması 2019-cu ildə həyata keçiriləcək monetar və fiskal siyasətin əsas prioritetlərindən biri kimi gündəlikdə durmaqdadır.

İ.Fətizadə deyib ki, 2019-cu il üçün dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 28 faizi həcmində olmaqla, mütləq ifadədə 22 milyard 918 milyon manat təşkil edəcək. Bu da cari illə müqayisədə 769 milyon manat və ya 3,5 faiz çoxdur. Gəlirlərin 9 milyard 217 milyon manatı və ya 40,2 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 13 milyard 700 milyon manatı və ya 59,8 faizi neft gəlirlərinin payına düşəcək. 2019-cu ildə Vergilər Nazirliyin xətti ilə proqnozlaşdırılan daxilolmalar 7 milyard 316 milyon manat, Dövlət Gömrük Komitəsi xətti ilə proqnozlaşdırılan daxilolmalar isə 3 milyard 452 milyon manat səviyyəsində qiymətləndirilir. Dövlət Neft Fondundan transfert isə 11 milyard 364 milyon manat müəyyən edilib. Büdcə təşkilatlarının ödənişli xidmətləri hesabına 627 milyon manat, digər daxilolmalar üzrə 159 milyon manat vəsaitin daxil olacağı nəzərdə tutulur.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də xərclərin sosialyönümlü olmasının diqqətdə saxlanıldığını söyləyən İ.Fətizadə diqqətə çatdırıb ki, növbəti ildə sosial tədbirlərə aid olan elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər siyasəti ilə bağlı xərclərə 6 milyard 369 milyon manat vəsait sərf ediləcək. Bu da cari illə müqayisədə 787 milyon manat, yəni 14,1 faiz çoxdur. Sosial tədbirlərin xərclərinin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi cari illə müqayisədə 1,5 faiz bənd artaraq 25,7 faizə, ümumi daxili məhsula nisbətdə isə 0,5 faiz bənd artaraq 7,8 faizə çatacaq. Prezident İlham Əliyevin sərəncamları ilə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqqılarının artırılması, sosial müavinətlər, təqaüdlər və digər sosial yönümə aid edilən xərclər üzrə yaranmış əlavə maliyyə öhdəliklərinin təmin edilməsi üçün dövlət büdcəsindən 620 milyon manat, pensiya təminatı sahəsində əlavə sosial müdafiə tədbirləri üçün 110 milyon manat, 1425 məktəbəqədər təhsil müəssisəsində bir günlük ərzaq xərclərinin orta hesabla üç dəfə artırılması məqsədilə 83 milyon manat məbləğində vəsait ayrılıb. Növbəti ildə elm xərcləri üçün 134 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 5 milyon manat və ya 4,2 faiz çoxdur. 2019-cu ilin təhsil xərclərinə 2 milyard 275 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da cari ilə nisbətən 231 milyon manat və ya 11,3 faiz çoxdur. Təhsil xərclərinin dövlət büdcəsinin xərcləri tərkibində xüsusi çəkisi 9,2 faiz təşkil edir. Növbəti ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 1 milyard 48 milyon manat vəsait nəzərdə tutulub. Bu da cari illə müqayisədə 309 milyon manat və ya 41,8 faiz çoxdur. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı maliyyə təminatının yaradılması üçün 240 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2019-cu ilin dövlət büdcəsi ilə bağlı müzakirə olunan sənədlər qanunvericiliyin müəyyən etdiyi tələblərə uyğun tərtib edilib və müəyyən etdiyi vaxtda da təqdim olunub. Həmçinin 2019-cu ilin dövlət büdcəsinin layihəsi büdcə qaydalarının tətbiq edilərək hazırlandığı ilk büdcə layihəsidir və həmin qaydaların tələbləri də müzakirə edilən layihədə gözlənilib. Büdcə qaydaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən fiskal intizamın təmin edilməsi və protsiklik siyasətdən uzaqlaşmaq istiqamətində verdiyi tapşırıqların icrası üçün qanunvericiliyin əsasını formalaşdırır.

Hesablama Palatasının sədri deyib ki, sosial sahələrin inkişafı, aztəminatlı əhalinin sosial rifahının yüksəldilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısı tərəfindən səhiyyə, elm, təhsil sahələrinin inkişaf etdirilməsi və vətəndaşlara göstərilən xidmətlərdə şəffaflığın və operativliyin təmin olunması, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, müvafiq informasiya sistemlərinin formalaşdırılması ilə bağlı dəfələrlə müvafiq tapşırıqlar verilib, zəruri maliyyə vəsaitlərinin ayrılması təmin olunub.

V.Gülməmmədov qeyd edib ki, növbəti ilin dövlət büdcəsinin proqnozlaşdırılması zamanı da sosial sahələrə xüsusi diqqət yetirilib. Belə ki, sosial siyasətin həyata keçirilməsi ilə bağlı xərclər üçün 2019-cu ilin büdcə layihəsində 6,4 milyard manat nəzərdə tutulub ki, bu da 2018-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 14,1 faiz çoxdur. Müvafiq xərclərin xüsusi çəkisinin dövlət büdcəsində 2018-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 1,5 faiz bəndi artımla nəzərdə tutularaq 25,7 faizlik paya malik olacağı gözlənilir.

Ümumiyyətlə, növbəti ilin dövlət büdcəsində sosial siyasətin həyata keçirilməsi ilə bağlı xərclərin ümumi daxili məhsula nisbəti də digər istiqamətlərlə müqayisədə yüksəkdir. 2019-cu ildə bu göstərici 0,7 faiz bəndi artaraq 7,8 faiz təşkil edəcək.

Bildirilib ki, 2019-cu ildə sosialyönümlü layihələrə dövlət əsaslı vəsait qoyuluşundan 945,4 milyon manat və xarici kreditlər hesabına 19,6 milyon manat olmaqla, ümumilikdə 965 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub. Bu da 2018-ci illə müqayisədə 220,6 milyon manat və ya 30,4 faiz çoxdur. Həmin vəsaitlər hesabına 41 sosial təyinatlı layihənin təhvil veriləcəyi proqnozlaşdırılır.

2019-cu il üçün dövlət büdcəsi layihəsində "Sosial müdafiə və sosial təminat" bölməsi üzrə 2018-ci ilin gözlənilən icra göstəricisindən 11,2 faiz çox olmaqla 2,6 milyard manat vəsait nəzərdə tutulub.

Palata sədri diqqətə çatdırıb ki, "Büdcə zərfi"ndən də göründüyü kimi, proqnozlaşdırılmış vəsaitin əsas hissəsinin - 58,9 faizinin, əvvəlki illərdə olduğu kimi, Dövlət Sosial Müdafiə Fonduna dövlət öhdəliklərinin maliyyələşdirilməsi məqsədilə ayrılması nəzərdə tutulub.

**"Dövlət fəal sosial müdafiə tədbirlərinin genişləndirilməsinə xüsusi diqqət yetirir, eyni zamanda, passiv tədbirlər arasında ünvanlı dövlət sosial yardımı xüsusilə əhəmiyyətlidir və növbəti ildə 171,2 milyon manat vəsait bu məqsədlə proqnozlaşdırılıb. Qeyd edək ki, Hesablama Palatası yardımların təyin edilməsi və ödənilməsi ilə bağlı apardığı nəzarət tədbirlərində ünvanlı yardımın ailənin maddi-məişət şəraitinin müayinəsinin qanunvericiliklə müəyyən edilməsinə baxmayaraq, həyata keçirilmədiyini, yalnız müraciət edən şəxsin məlumatları əsasında avtomatlaşdırılmış sistem (VEMTAS) tərəfindən təyinat aparıldığını, ailənin istifadəsində olan əmlak, ailənin gəlirləri və ailənin tərkibində dəyişikliklər haqqında düzgün olmayan məlumatların qəbul edilməsi hallarının mövcud olduğunu və qeyd edilən nöqsanlar səbəbindən ünvanlı dövlət sosial yardımı üzrə artıq ödəmələrin yarandığını müəyyən edib. Bu tədbirlərlə bağlı Nazirliyə müvafiq məlumatlar verilib və ünvanlılığın təmin edilməsi ilə bağlı aparılmış tədbirlər nəticəsində cari ilin 9 ayında ünvanlı dövlət sosial yardımı təyin edilmiş ailələrin sayı ilin əvvəli ilə müqayisədə 37,1 faiz azalıb. Cari ilin 9 ayında bu istiqamətdə xərclər isə illik təyinata nəzərən 38,7 faiz icra olunub"**, - deyə V.Gülməmmədov bildirib.

Diqqətə çatdırılıb ki, dövlət büdcəsinin xərclərində nəzərdə tutulmuş dövlət proqramları və tədbirlərinin əksər hissəsi məhz sosial sahələrə aiddir. Dövlət proqramlarının tədbirlər üzrə hədəflərin həm keyfiyyət, həm də kəmiyyət göstəriciləri ilə dəqiq müəyyən olunması son nəticədə ayrılan vəsaitlərin səmərəlilik və nəticəliliyinin artırılması ilə yanaşı, şəffaflıq və hesabatlılığın da yüksəldilməsinə xidmət etmiş olar.

Palata sədri deyib: **"Ümumiyyətlə, növbəti ildən dövlət büdcəsinin planlaşdırılması işinin yeni mərhələsinə başlanılır və 2019-cu ilin dövlət büdcəsi həmin mərhələyə keçid mərhələsi olaraq qəbul edilməlidir".**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, dünyada gedən proseslərə baxmayaraq, Azərbaycanda bütün sosial proqramlar uğurla icra edilir. 2019-cu ilin büdcəsi də digərləri kimi sosialyönümlüdür.

Çətin həyat şəraitində yaşayan uşaqların müdafiəsi üzrə operativ xidmətin yaradılmasının əsas problemlərdən biri olduğunu deyən Dövlət Komitəsinin sədri bu məsələlərin həlli ilə bağlı bir sıra təkliflər səsləndirib.

Komitə sədri, həmçinin zorakılıq hallarının aşkarlanması ilə bağlı "qaynar xətt"lərin yaradılmasının vacibliyini vurğulayıb. H.Hüseynova qeyd edib ki, 2017-ci ildə ölkədə sağlamlıq imkanları məhdud uşaqların sayı 7 min 934 nəfər olub. Bu ölkə üzrə uşaqların cəmi 2,7 faizini təşkil edir.

İclasda çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov rəhbərlik etdiyi qurumun Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə yaradıldığını diqqətə çatdıraraq qeyd edib ki, ləğv edilmiş Müəllif Hüquqları Agentliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Patent və Əmtəə Nişanları Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanası birləşib və Əqli Mülkiyyət Agentliyi vahid struktur kimi formalaşıb. Respublika Elmi-Texniki Kitabxanası istisna olmaqla, bütün bu strukturlar yeni təşkilati-hüquqi forma üzrə fəaliyyət göstərirlər, yəni onlar publik hüquqi şəxslərdir. Bu da mütərəqqi idarəetmə formasıdır. Bu forma büdcəyə qənaət gətirir. Digər tərəfdən bu, strukturlara yeni imkanlar yaradır.

K.İmanov diqqətə çatdırıb ki, Davos Dünya İqtisadi Forumunun son hesabatına görə, Azərbaycan əqli mülkiyyətin qorunmasına görə dünyada 36-cı yerdədir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, növbəti ildə dövlət büdcəsindən ayırmalar, məcburi dövlət sosial sığorta haqlarının yığımı baxımından ciddi artımlar gözlənilir. Əlavə gəlirlər də Azərbaycan vətəndaşlarına sosial ödənişlərə yönləndiriləcək. Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 95 faizdən çoxu əhaliyə edilən ödənişlərdir. Nazir qeyd edib ki, proqnozlara əsasən gələn il üzrə Azərbaycanda orta aylıq əmək pensiyası 241 manat təşkil edəcək.

Bildirilib ki, maddi-məişət şəraitinin yoxlanılması, ümumilikdə bu mexanizmin həyata keçirilməsinə nəzarətin formalaşdırılması və mexanizmin təkmilləşdirilməsi nəticəsində büdcə vəsaitinə kifayət qədər qənaət edilib. İlin sonunadək 80 milyon manata yaxın qənaət edilməsi gözlənilir. **"Eyni zamanda, ünvanlı dövlət sosial yardım mexanizminin özünüməşğulluq mexanizmi ilə əlaqələndirilməsi təmin edilib. Minimum kvotalar müəyyənləşdirilib. Ünvanlı dövlət sosial yardımı alanlar özünüməşğulluq proqramına cəlb olunan şəxslərin içərisində 40 faizlik paya malik olacaqlar. Hər il 7-8 min ailənin özünüməşğulluq proqramına cəlb olunması planlaşdırılır. Onun 40 faizi məhz ünvanlı dövlət sosial yardımı alanlardan keçid alan şəxslər olacaq. Bu il 1200 ünvanlı dövlət sosial yardımı alan şəxs özünüməşğulluq proqramına cəlb olunub. Qarşıdakı 2 ay ərzində onlara aktivlərin təqdim olunması planlaşdırılır",** - deyə nazir diqqətə çatdırıb.

Ölkədə sosial məlumat bazasının yaradılması istiqamətində işlərin yekunlaşmaqda olduğunu deyən S.Babayev bildirib ki, noyabrın 19-da sosial reyestrin təqdimatı olacaq. Bu reyestr vasitəsilə Azərbaycan vətəndaşlarının sosial sahədə aldığı bütün yardım, dəstək və xidmətlərin vahid elektron bazada toplanması təmin ediləcək.

Məşğulluq sistemində avtomatlaşdırmanın yekunlaşmaq üzrə olduğunu söyləyən nazir deyib ki, 2019-cu il yanvarın 1-dək məşğulluq sisteminin tam şəkildə avtomatlaşdırılması nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, ümumilikdə, büdcə layihəsi sosial istiqamətdə nəzərdə tutulmuş islahatların həyata keçirilməsinə və əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına geniş imkanlar açır. **"Düşünürük ki, büdcənin təsdiqi nəticəsində dövlətimizin başçısının sosial sektor qarşısında qoyduğu tapşırıqlar yüksək səviyyədə icra oluna biləcək",**- deyə Sahil Babayev vurğulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycan xalqının tarixinin, mədəniyyətinin xarici ölkələrdə daha yaxından tanıdılması sahəsində gördüyü işlərdən danışaraq deyib: **"Ağdamda Muğam Evinin inşa edilməsinin böyük və tarixi hadisədir. Biz hamımız bu gözəl hadisəni müşahidə etdik. Bu Muğam Evi Dövlət büdcəsindən vəsait ayrılmadan, Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. Muğamın beşiyində Muğam Evi fəaliyyət göstərəcək. Bu, çox mühüm hadisədir".**

Mədəniyyət sahəsində sponsorluq hərəkatının genişləndirilməsi üçün qanunvericilik bazasının yaradılmasını təklif edən Əbülfəs Qarayev hazırda bu sahəsinin maliyyələşdirilməsinin mərkəzləşdirilmiş qaydada həyata keçirildiyini bildirərək deyib: **"Mədəniyyət sahəsində böyük optimallaşdırma işləri aparılır. Bunun nəticəsi olaraq, lazımsız iş yerlərinin bağlanması, vəsaitin daha qənaət ilə xərclənməsi və strukturun təkmilləşdirilməsi ilə bağlı çox ciddi addımlar atılıb".**

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Mədəniyyət komitəsinin sədri Rəfael Hüseynov çıxış edərək bildiriblər ki, hökumət hər zaman olduğu kimi, 2019-cu il dövlət büdcəsi layihəsini mükəmməl səviyyədə hazırlayaraq Milli Məclisə təqdim edib. 2019-cu ilin dövlət büdcəsi layihəsi çox dəqiq hesablamalar, proqnozlar, təhlillər əsasında hazırlanıb.

İclasda Milli Məclisin deputatları qanun layihəsi ilə bağlı fikirlərini bildirib, təkliflərini səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov iclasda qaldırılan məsələlərə münasibət bildirdikdən sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

# Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatı ötən 25 ildə uğurlu fəaliyyəti ilə seçilib

1992-ci ildə Naxçıvan şəhərində Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyası (YAP) müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin olunması naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən partiya kimi yaradılıb. YAP Naxçıvan şəhər təşkilatının təsis konfransı partiyanın yaranmasından, təqribən, bir il sonra 1993-cü il noyabrın 5-də keçirilib.



17 min 820 üzvü olan təşkilatın sıralarında 9 min 398 qadın, 10 min 850 gənc təmsil olunur. Təkcə son iki ildə təşkilatda partiyaya 2036 üzv qəbul edilib ki, bunların da 1180-i qadın, 1990-ı gənclərdir. YAP Naxçıvan şəhər təşkilatının 2 üzvü Azərbaycan Respublikası Milli Məclisinin, 19 üzvü isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Üzvlərin 2-si akademik, 5-i AMEA-nın müxbir üzvü, 26-sı elmlər doktoru, 162-si fəlsəfə doktorudur.





AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu fikirlər YAP Naxçıvan şəhər təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə Naxçıvan şəhərindəki Gənclik Mərkəzində keçirilən tədbirdə səsləndirilib.

YAP Naxçıvan şəhər təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli tədbirdəki çıxışında "Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının keçdiyi tarixi yol və qarşıda duran vəzifələr" mövzusunda məruzə edib.

Bildirilib ki, təşkilatı hələ yaradılarkən artıq ciddi siyasi qüvvə kimi formalaşmış hesab etmək olardı. Belə ki, təsis konfransını 70 ərazi ilk təşkilatından seçilən 420 nəfər nümayəndə ilə keçirən Naxçıvan şəhər təşkilatı hələ o zaman öz sıralarında 5200 nəfər üzvü birləşdirirdi. 1993-cü ilin iyun ayında ölkədə siyasi hakimiyyət böhranı şəhər partiya təşkilatının təsis konfransını bir qədər yubatmışdı. Təşkilat təsis edilərkən Ulu öndər Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilmiş, başqa sözlə, partiya çox qısa müddətdə müxalifət təşkilatından iqtidar partiyasına çevrilmişdi.

**"2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ilin martında partiyanın III Qurultayında YAP-ın Sədri seçilən İlham Əliyev Ona bəslənilən bütün ümidləri doğruldub. Dövlətimizin başçısının rəhbərliyi altında bu gün müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir",** - deyən Elman Cəfərli qeyd edib ki, Azərbaycan artıq həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

Vurğulanıb ki, zamanın sınağından uğurla çıxmış Heydər Əliyev siyasəti bu gün Naxçıvanda da qətiyyətlə davam etdirilir. Ötən illər muxtar respublikada da sürətli sosial-iqtisadi inkişaf və elmi-mədəni intibah dövrü kimi muxtariyyət tarixinin ən şanlı səhifəsini təşkil edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və YAP Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun muxtar respublikaya uğurlu rəhbərliyi Ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə dönməz sədaqətin bariz nümunəsidir.

YAP Naxçıvan şəhər təşkilatının sədri diqqətə çatdırıb ki, inkişaf proseslərində YAP Naxçıvan şəhər təşkilatının üzvləri də yaxından iştirak ediblər. Hazırda

Məruzə ətrafında YAP Naxçıvan şəhər təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva, təşkilatın Gənclər Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, dosent Asəf Əliyev, YAP Naxçıvan şəhər təşkilatının Şura üzvü Könül Mirzəyeva çıxış edərək, əqidə həmkarlarına təbriklərini çatdırıblar.

YAP Naxçıvan şəhər təşkilatı İdarə heyətinin üzvü, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov və YAP Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov YAP-ın keçdiyi uğurlu yola qısa nəzər salıb, təşkilat üzvlərini yubiley münasibətilə təbrik ediblər.

Tədbirdə bir qrup veteran partiya üzvünə YAP Naxçıvan şəhər təşkilatının fəxri fərmanları və qiymətli hədiyyələr verilib, partiyaya yeni qəbul olunmuş gənc üzvlərə partiya vəsiqələri və oxunması zəruri olan kitablar təqdim olunub.

Sonda tədbir iştirakçıları YAP-ın fəaliyyətinə həsr olunan filmə baxıblar.

# "Azərkosmos" Beynəlxalq Astronavtika Federasiyasına üzv olub

"Azərkosmos" ASC dünyada kosmik sahə üzrə nüfuzlu tədbirlərdən hesab olunan 69-cu "Beynəlxalq Astronavtika 2018 Konqresi"ndə təmsil olunub.

Beynəlxalq Astronavtika Federasiyasının təşəbbüsü ilə ildə bir dəfə keçirilən "Beynəlxalq Astronavtika 2018 Konqresi"ndə bütün dünyadan olan astronavtika üzrə alimlər, kosmik agentliklərin, beynəlxalq təşkilatların, özəl sektorun təmsilçiləri olan 4500-dən çox nümayəndə iştirak edib.



"Azərkosmos" ASC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konqres çərçivəsində "Azərkosmos" Beynəlxalq Astronavtika Federasiyasının üzvlüyünə qəbul olunub. "Azərkosmos" federasiyaya üzv olmaqla kosmik araşdırmalar sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə səmərəli əməkdaşlıq münasibətlərinin qurulması və birgə tədqiqatların aparılması imkanlarını əldə edib.

Həmçinin konqresdə müxtəlif ölkələrin kosmik agentlik və qurum rəhbərləri ilə "Azərkosmos"un fəaliyyəti, xidmətləri, qarşılıqlı faydalı əməkdaşlığın və təcrübə mübadiləsinin aparılması müzakirə olunub.

Qeyd edək ki, Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" ASC telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir. 2013-cü ilin fevral ayında orbitə buraxılan və "Azərkosmos" tərəfindən idarə edilən "Azerspace-1" peyki 46° şərq uzunluğu orbital mövqeyində yerləşir və Avropa, Afrika, Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya regionlarını əhatə edir. Ən azı 15 il müddətində orbitdə fəaliyyət göstərəcək peykin faydalı yükü 36 transponderdən ibarətdir: C diapazonda 24, Ku diapazonda 12 transponder. 2014-cü ilin dekabr ayından etibarən "Azərkosmos" sayca ikinci, təyinatına görə yüksək ayırdetməli (1,5 m ayırdetmə) Yer səthinin məsafədən müşahidə peyki olan "Azersky"ın idarəçiliyini təhvil alıb və bununla da geoinformasiya xidmətləri də daxil olmaqla Yer səthinin məsafədən müşahidəsinin kommersiya fəaliyyətinə başlayıb. Şirkətin strateji inkişaf planlarına əhatə dairəsinin və xidmətlər spektrinin genişləndirilməsi daxildir. Bu məqsədlə "Azərkosmos" 2018-ci ildə ikinci telekommunikasiya peyki "Azerspace-2"ni 45° şərq uzunluğu orbital mövqeyinə çıxarıb.

# Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Ermənistan kütləvi informasiya vasitələrində verilmiş məlumata əsasən, həmin ölkənin müdafiə naziri vəzifəsinin icraçısı, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri David Tonoyan Azərbaycan tərəfinin əsirlərin dəyişdirilməsinə dair təklifi barədə mətbuatdan oxuduğunu və rəsmi təklif almadıqlarını bildirib.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bildirir ki, 2016-cı il aprelin 29-da Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) ünvanladığı məktubunda hazırda hər iki tərəfdə saxlanılan şəxslərin dərhal azad edilməsi və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, cəsədlərin 3 gündən gec olmayaraq qaytarılması ilə bağlı saziş layihəsinin hazırlanmasını təklif edib. Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, BQXK bu təklifin Ermənistan tərəfinə çatdırıldığını və saziş layihəsi üzərində müvafiq iş apardığını bildirib.

Bununla yanaşı, Dövlət Komissiyası Dağlıq Qarabağ münaqişəsi bölgəsində itkin düşmüş şəxslərin axtarışı, əsir-girovların azad edilməsi üzrə Beynəlxalq İşçi Qrupu (BİQ) ilə 2017-ci və 2018-ci illərdə Bakıda keçirdiyi görüşlər zamanı tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi məsələsini müzakirə edib. Bu təklif son iki ildə Ermənistana və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etmiş BİQ həmsədrləri - Bernhard Klazen (Almaniya), Svetlana Qannuşkina (Rusiya) və Paata Zakeriaşvili (Gürcüstan) tərəfindən Ermənistanın müvafiq qurumlarına çatdırılaraq müzakirə edilib.

Son dəfə cari ilin oktyabr ayında Ermənistana və işğal olunmuş Dağlıq Qarabağa səfər edən BİQ həmsədrləri Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu ilə telefon əlaqəsi saxlayaraq, bu ilin noyabr ayının sonunda Gürcüstanın Tbilisi şəhərində hər iki ölkənin Dövlət komissiyalarının görüşünün keçirilməsini planlaşdırdıqlarını və müzakirəyə çıxarılacaq mövzuları razılaşdırmaq istədiklərini bildiriblər.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası müzakirəyə çıxarılacaq əsas məsələnin hazırda tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi mövzusu olacağı təqdirdə, Azərbaycan tərəfinin görüşə hazır olduğunu BİQ həmsədrlərinin diqqətinə çatdırıb.

# Dilimizin saflığının qorunması və inkişafı həmişə dövlətimizin diqqət mərkəzindədir

*Ekspertlərin fikrincə, yeni yaradılacaq Monitorinq Mərkəzi Azərbaycan dilinin tətbiqinə nəzarət edəcək, bu sahədə mövcud olan problemlərin aradan qaldırılmasına öz töhfəsini verəcək*



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanda göstərilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılıb. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilib. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir. Məhz bu təsirli tədbirləri görmək üçün ölkə başçısı tərəfindən imzalanan sözügedən Fərmana əsasən Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaradılacaq.



***Jalə Əliyeva:***
*Yaradılan Monitorinq Mərkəzi, sadəcə, ədəbiyyat və ya mətbuat sahəsində deyil, eyni zamanda, internet resurslarında və küçə reklam lövhələrində ədəbi dil normalarının qorunmasını təmin etməlidir*



***Buludxan Xəlilov:***
*İmzalanan Fərman doğma ana dilimizə diqqət və qayğının bariz nümunəsidir*



***Bəhruz Quliyev:***
*İnanıram ki, yeni qurum ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi hallarının aradan qaldırılması üçün təsirli tədbirlər görəcək*

Yeri gəlmişkən, noyabrın 5-də Ağdam Muğam Mərkəzinin açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşdəki çıxışında bu məqama toxunan Prezident İlham Əliyev bildirib ki, bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir: **"Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir, biz dilimizi xarici təsirdən qorumalıyıq. bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Ancaq biz görürük ki, bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Bu gün bu fürsətdən istifadə edərək, bir daha bildirmək istəyirəm ki, hamımız öz dilimizi qorumalıyıq".**

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı Jalə Əliyeva imzalanan Fərmanın böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycan dilinin saflığının qorunması, imkanlarının inkişaf etdirilməsi və gələcək nəsillərə olduğu kimi ötürülməsi olduqca vacibdir. Millət vəkili qeyd edib ki, bu gün qloballaşan dünyada xalqların, millətlərin öz dillərini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaları çətin olduğu qədər həm də əhəmiyyətli amildir: **"Dilimizin qorunması, inkişaf etdirilməsi hər zaman dövlət siyasətimizin prioritetlərindən olub. Ulu öndərimiz Heydər Əliyev hələ sovet dönəmində Azərbaycan dilinin rəsmi şəkildə dövlət dili statusu almasına nail olmuşdu. Bu gün ana dilimizə diqqət və qayğı siyasəti böyük uğurla davam etdirilir. Bir neçə gün öncə Prezident İlham Əliyev tərəfindən imzalanan Fərman da bunu təsdiqləyir. Bu, tarixi və əhəmiyyətli bir addımdır. Dilimizin xarici müdaxilələrdən qorunması, bütün təsirlərdən arınmış bir şəkildə qorunub yaşadılması olduqca vacibdir. Zaman-zaman bununla bağlı ictimai müzakirələr, fikir mübadiləsi aparılırdı. Möhtərəm Prezidentimiz bu problemin həlli ilə bağlı olduqca mühüm bir qərar qəbul etdi. Artıq bu məsələyə qanunvericiliklə nizam-intizam gətiriləcək və şəxsən cənab Prezidentimiz bunu nəzarətində saxlayır. Bunun üçün biz cənab Prezidentimizə minnətdarıq".**

Millət vəkili yeni yaradılacaq Monitorinq Mərkəzinin effektiv fəaliyyəti üçün iş mexanizminin müəyyənləşdirilməli olduğunu bildirib. Onun sözlərinə görə, yeni yaradılacaq qurum işini yüksək səviyyədə qura bilmək üçün bütün ölkə üzrə monitorinq keçirməlidir: **"Dəfələrlə bu istiqamətdə müzakirələr aparılıb, bir sıra təkliflərlə çıxış etmişik. Bu gün şəhərimizdə mənasız, Azərbaycan dilinin orfoqrafiyasına zidd olan reklam çarxlarına, lövhələrinə təsadüf olunur. Dil qaydalarına mütləq şəkildə riayət olunmalıdır və dilimizi qorumalıyıq. Yaradılan Monitorinq Mərkəzi, sadəcə, ədəbiyyat və ya mətbuat sahəsində deyil, eyni zamanda, internet resurslarında və küçə reklam lövhələrində ədəbi dil normalarının qorunmasını təmin etməlidir. Bütün bunlara nəzarət edilməsi həmin qurumun fəaliyyətinin bir hissəsinə çevrilməlidir. Yəqin ki, qurumun daha çevik fəaliyyəti ilə bağlı layihələr də hazırlanacaq. Bu sahədə mütəxəssislər bu mərkəzə cəlb edilməli və ümumi işimizə öz töhfələrini verməlidirlər".**

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının üzvü, filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilov da imzalanan Fərmanın bir sıra əhəmiyyətli məsələlərin həlli baxımından mühüm rol oynadığını diqqətə çatdırıb. Komissiya üzvü bildirib ki, müasir Azərbaycan dili zəngin lüğət tərkibinə və mükəmməl qrammatik quruluşa malik olsa da, bu imkanlardan yetərincə istifadə olunmur. Azərbaycan dilinin imkanlarından düzgün istifadə edilmir, eyni zamanda, dilin tətbiq olunduğu sahələrdə dil qaydaları pozulur. Dil qaydalarının pozulduğu sahələrdə ciddi və təsiredici tədbirləri həyata keçirmək gündən-günə öz əhəmiyyətini artırır: **"Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən imzalanmış Fərman və sərəncamlar dilimizin hüquqi statusunu qorumaqla yanaşı, onun işlənməsi ilə bağlı şəraiti daha da əlverişli edir. Dilimizin hüquqi statusunun qorunması ilə bağlı 2001-ci ildən indiyə qədər imzalanmış Fərman və sərəncamlar həm də dilçilik elminin inkişafı üçün geniş imkanlar yaradır. İmzalanan Fərman da doğma ana dilimizə diqqət və qayğının bariz nümunəsidir və hər bir vətəndaşa anladır ki, dilimizin saflığının qorunması, onun tətbiqi və inkişafı həmişə dövlətimizin diqqət mərkəzindədir".**

B.Xəlilovun fikrincə, həm şifahi, həm də yazılı ədəbi dilimizin imkanlarından düzgün istifadə edilmir. Xüsusilə, orfoqrafiya qaydalarından başlamış qrammatik qayda-qanunlara qədər dilin normaları tez-tez pozulur. Televiziya və radio kanallarında çalışan bəzi aparıcıların nitqi qüsurludur. Onların bir çoxu Azərbaycan dilində düzgün, dəqiq danışmağı bacarmır, ədəbi dil, habelə orfoepiya normalarına riayət etmirlər: **"Dövlət Dil Komissiyası yanında yaradılacaq Monitorinq Mərkəzi publik hüquqi şəxs KİV-lərdə, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edəcək. Yeni yaradılacaq qurum "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı"nı hazırlayacaq, ədəbi dil normalarının qorunmasını təmin edəcək, Azərbaycan dilinin tətbiqinə nəzarəti artıracaq".**

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev də ana dilinin hər bir xalqın qürur mənbəyi olduğunu, dilin millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biri olduğunu deyib. B.Quliyevin sözlərinə görə, Azərbaycanın ziyalıları hər zaman dili xalqın yaşaması üçün ən mühüm atribut hesab edib, özünün bu dəyərli milli sərvətini kənar dillərin təsirindən qoruya bilib, inkişafına öz töhfələrini veriblər. Bu gün də dilimizin təkmilləşdirilməsi və inkişafı naminə mühüm addımlar atılmaqdadır: **"Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən imzalanmış müvafiq Fərman və sərəncamlar dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirib, ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli Fərmanı mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malik Azərbaycan dilinin tətbiqi sahəsində hüquqi tənzimləmənin və daimi nəzarətin təmin edilməsi, mövcud nöqsanların və pozuntuların aradan qaldırılması məqsədi daşıyır. Məhz bu Fərman Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ana dilimizin istifadəsi, təbliği, onun saflığının qorunması və inkişafına diqqət və qayğısının bariz nümunəsidir. Bu gün Azərbaycan dilinin imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları da geniş yayılıb. Məsələn, hazırda cəmiyyətimizdə, KİV-lərdə ana dilindən istifadə sahəsində müəyyən nöqsanlar var. Çox təəssüflər olsun ki, bir sıra hallarda ədəbi dilin normalarına, leksik və qrammatik qaydalara əməl edilmir. Bəzi televiziyalarda, radiolarda məişət danışığından istifadə olunur, əcnəbi söz və ifadələr yersiz işlədilir. Bu mənada haqlı olaraq da ictimaiyyət bu cür hallara qarşı kəskin münasibətini ortaya qoyur. Mövcud vəziyyət bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin həyata keçirilməsini tələb edir. Prezidentin Fərmanı ilə yeni yaradılacaq "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs Azərbaycan dilinin tətbiqinə nəzarət, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edəcək. Düşünürəm ki, yeni yaradılacaq qurum fəaliyyətini yüksək səviyyədə həyata keçirəcək, bu sahədəki problemlərin aradan qaldırılmasına öz töhfəsini verəcək. İnanıram ki, yeni qurum ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi hallarının aradan qaldırılması üçün təsirli tədbirlər görəcək".**

Bəhruz Quliyev onu da bildirib ki, bu işdə KİV-lərin də üzərinə müəyyən öhdəliklər düşür. Ona görə media da mövcud neqativ halların aradan qaldırılması üçün məqsədyönlü tədbirlər həyata keçirməlidir.

**Pərviz SADAYOĞLU**

# Ölkəmiz multikulturalizm və tolerantlığın mərkəzinə çevrilib



***Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov www.yap.org.az saytına müsahibə verib:***

**- Mehman müəllim, sivilizasiyalararası dialoqa böyük töhfələr verən Azərbaycan eyni zamanda, dünyada tolerant ölkə kimi tanınır.**

- Sivilizasiyalararası münasibətlər və dialoq, eləcə də tolerantlıq mühitinin formalaşması üçün müəyyən amillər olmalıdır. Azərbaycanda tarixən həm coğrafi baxımdan, həm də sosial-mədəni cəhətdən həmin amillər mövcud olub. Belə ki, coğrafi baxımdan tarixi İpək Yolunun üstündə və Şərqlə Qərbin kəsişdiyi yerdə yerləşməyimiz, sosial-mədəni cəhətdən isə ərazimizdə bir çox dinlərin mövcud olması, mədəniyyətlərin qurulması sivilizasiyalararası dialoq və tolerantlıq mühitinin yaranmasına gətirib çıxarmışdır. Ənənə şəklində nəsillərdən nəsillərə ötürülən bu mühit bu gün artıq müstəqil və müasir Azərbaycan dövlətinin siyasətində prioritet istiqamətlərdən biridir. Dövlət başçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində mədəniyyətlər və dinlərarası qarşıdurmaların artdığı dövrümüzdə müxtəlif mədəniyyətlərin qovşağında yerləşən müstəqil ölkəmiz multikulturalizm və tolerantlığın mərkəzinə çevrilib. Öz ənənə və dəyərlərini qoruyaraq müasir dünyaya inteqrasiya edən ölkəmiz üçün bu siyasət mühüm əhəmiyyət kəsb edir. Bunun nəticəsində biz həm öz tarixi mirasımıza sahib çıxır, həm də dünyada sülh, mədəniyyətlər və dinlərarası dostluq münasibətlərinin inkişafında aktiv rol oynayırıq.

**- Azərbaycan xalqı zəngin milli-mənəvi dəyərlərə sahibdir. Bu dəyərlərin qorunması və təbliğ edilməsinin əhəmiyyəti nədən ibarətdir?**

- Milli-mənəvi dəyərlərimiz bizi biz edən, bizim bir xalq kimi kimliyimizi təsdiqləyən vəsiqəmizdir. Bir xalqın və ya bir ölkənin digər xalqlar və ölkələr arasındakı yeri həm də onun milli-mənəvi dəyərləri ilə ölçülür. Xalqımız zəngin dəyərlərə sahibdir. Bu dəyərlərin qorunması və təbliği, əlbəttə ki, çox mühüm məsələdir. Hər şeydən əvvəl, bu bizim milli kimliyimiz, varlığımız və mədəniyyətimizlə bağlıdır. Dəyərlərimizi qorumaq kimliyimizi qorumaq, onları təbliğ etmək isə mədəniyyətimizin təbliği deməkdir. Müasir dünyada kimliklərin, mədəniyyətlərin və dəyərlərin təbliği və tanıdılması üçün imkanlar daha genişdir və biz bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik.

**- Bu yaxınlarda Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətə başlamasının 1 ili tamam oldu. Məlumdur ki, Fondun əsas vəzifələrindən biri müxtəlif sosial layihələrin həyata keçirilməsindən ibarətdir. Fond bu istiqamətdə nə kimi işlərə imza atıb və qarşıda hansı vəzifələr dayanır?**

- Fond 2018-ci ilin əvvəllərindən başlayaraq fəaliyyət göstərməyə başlayıb. Fondun gördüyü ilk işlərdən biri dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətlərinin həyata keçirilməsinə dəstək olmuşdur. Belə ki, Qafqaz Müsəlmanları İdarəsinin rəsmi müraciətinə əsasən QMİ tərəfindən rəsmi təyin olunan bütün imam, imam müavini və mütəvəllilərə aylıq maddi dəstək verilməkdədir. Hazırda Azərbaycanın hər bir bölgəsində fəaliyyət göstərən və QMİ tərəfindən rəsmi təyin olunan 1060-dan yuxarı din xadiminə Fond tərəfindən hər ay maddi dəstək göstərilir. Biz mənəvi dəyərlərimizin təbliği, dini maarifləndirmə işinə geniş yer ayırırıq. Yerlərdə bu mövzularda çoxsaylı seminar və müşavirələr təşkil etmişik və bu tədbirlər hal-hazırda da davam edir. Eyni zamanda Fond tərəfindən dini icmaların dini radikalizm, dini fanatizm və xurafat əleyhinə layihələri də maliyyələşdirilir.

Fondun sifarişi ilə mənəvi dəyərlərimizi təbliğ edən sənədli filmlər və videoçarxlar hazırlanır. İlin sonunadək mənəvi və dini dəyərlərimizlə bağlı mütəxəssislərimiz tərəfindən yazılan müxtəlif kitab və kitabçalarımız nəşr olunacaqdır. ASAN radioda hər həftə Fondun maliyyələşdirdiyi "Mənəvi dəyərlərimiz" adlı veriliş efirə gedir.

Bu il ramazan ayında respublikamızın müxtəlif bölgələrində şəhid ailələri və Qarabağ əlilləri üçün iftar süfrələri təşkil olunub, Ramazan və Qurban bayramlarında bəzi şəhid ailələrinə ərzaq yardımları göstərilmişdir. Sentyabr ayında Fondumuz tərəfindən Bilik Fondu ilə birgə cəbhəyanı bölgədə (Cocuq Mərcanlı, Füzuli, Ağdam, Tərtər, Laçın, Ağcabədi rayonlarında) məktəbə gedəcək 100 nəfər birinci sinif şagirdinə məktəbli forması və çantalar hədiyyə olunub. Hal-hazırda jurnalistlər arasında mənəvi dəyərlərimizlə bağlı müsabiqə təşkil etmişik və bu müsabiqə noyabr ayının sonunda başa çatacaq. İlin sonunadək müxtəlif istiqamətlərdəki layihə və tədbirlərimiz davam edəcək.

Gələn il fəaliyyətlərimizi daha da genişləndirmək istəyirik. Aidyyəti qurum və təşkilatlarla birgə fəaliyyətdə maraqlıyıq. Ailə, dini, əxlaqi, ictimai və s. dəyərlərimiz, adət-ənənələrimiz, tariximiz və digər sahələrdə layihələr həyata keçirməyi düşünürük.

**- Bu gün gənc nəsil arasında mənəvi dəyərlərimizin təbliği cəmiyyətimizi düşündürən aktual məsələlərdən biridir. Mənəvi Dəyərlərin Təbliği Fondu bu istiqamətdə nə kimi layihələr həyata keçirməyi nəzərdə tutur?**

- Gənclərin milli ruha sahib və müasir düşüncəyə malik olmaları çox vacibdir. Milliliyə bağlı qalaraq müasirləşmək lazımdır. Fondumuzun fəaliyyətində gənclər arasında dəyərlərimzin təbliği mühüm yer tutur. Biz bu il Azərbaycanın müxtəlif bölgələrindən olan Fondumuzun könüllüləri üçün Yay Məktəbi təşkil etdik. Burada gənclərə milli-mənəvi dəyərlərimizlə bağlı müxtəlif mühazirələr oxundu. Tarixi abidələrimizi ziyarət etdik. Bakıda, digər şəhər və rayonlarda gənclərimizin iştirakı ilə çoxsaylı seminar və konfranslar keçiririk. Həmin tədbirlərə ekspertlər cəlb olunur və onlar eyni zamanda gənclərin mövzuyla bağlı suallarını cavablandırırlar. Həmçinin Təhsil Nazirliyi ilə birgə Bakı məktəbliləri arasında mənəvi dəyərlərimiz mövzusunda inşa-yazı müsabiqəsi təşkil etdik. Gələcəkdə gənclərlə bağlı daha maraqlı layihələr həyata keçirmək niyyətindəyik.

**- Mehman müəllim, bildiyimiz kimi, Azərbaycan mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir neçə gün öncə keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu da buna sübutdur. Sizcə, bu tipli mötəbər beynəlxalq tədbirlər mənəvi dəyərlərimizin təbliğində nə dərəcədə rol oynayır?**

- Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin sayı ildən ilə artmaqdadır. Bir müddət əvvəl təşkil olunan VI Bakı Beynəlxalq Humanitar Forumu Azərbaycanın bu sahədə getdikcə artan əhəmiyyətini göstərir. Cənab Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir. Bu cür beynəlxalq tədbirlərin keçirilməsi bizim ən böyük mənəvi dəyərlərimizdən biri olan müstəqilliyimizin təzahürüdür. Ölkəmizdə beynəlxalq konfranslar, forumlar və digər tədbirlərin keçirilməsi müstəqilliyimizin daha da möhkəmləndiyini və inkişaf etdiyini göstərir. Belə tədbirlər həm də xalqımıza məxsus dəyərlərin dünyada daha çox tanınmasına xidmət edir. Biz bu tədbirlər vasitəsilə öz dəyərlərimizi də dünya ictimaiyyətinə çatdırmaq imkanı əldə edirik. Bu sahədə aparılan uğurlu işlər ölkəmizə olan marağın hər keçən gün artmasına səbəb olur.

# Fransa radiosu Azərbaycan haqqında veriliş yayımlayıb




Fransanın "Radio Grand Ciel" radiosu Azərbaycan haqqında veriliş yayımlayıb.

AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Alain Romestainq qədim İpək Yolu üzərində yerləşən Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolu oynamasından söz açıb. Bildirib ki, enerji resursları ilə zəngin olan Azərbaycan iqtisadiyyatın şaxələndirilməsinə, turizmin inkişafına xüsusi diqqət yetirir. Aparıcı ölkəmizin iqtisadi göstəriciləri barədə ətraflı məlumat verib.

Verilişdə böyük beynəlxalq tədbirlərə ev sahibliyi edən Bakıda 2020-ci ildə futbol üzrə Avropa çempionatının final oyunlarının keçiriləcəyi diqqətə çatdırılıb. Dünyəvi ölkə olan Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin mehriban yaşamalarından danışılıb. Ölkəmizdə gender bərabərliyi, qadınların cəmiyyətdə yeri və rolu, təhsilin, elmin və mədəniyyətin inkişafına verdikləri töhfələr, onlara göstərilən dövlət qayğısı haqqında məlumat verilib. Azərbaycanda qadın hüquqlarının inkişafı tarixindən bəhs edilərkən onlara hələ 1918-ci ildə səsvermə hüququnun verildiyi diqqətə çatdırılıb. Bildirilib ki, bu gün Azərbaycanda qadınlar ictimai, siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurla fəaliyyət göstərirlər.

Verilişdə, həmçinin Azərbaycan mətbuatının keçdiyi yol, jurnalistika sahəsində qadınların kişilərlə çiyin-çiyinə çalışmaları barədə fikirlərə yer verilib. Bundan başqa, Azərbaycan-Fransız Universitetinin baş katibi Şarlot Payenin Azərbaycan qadınının cəmiyyətdə rolu və nüfuzu barədə fikirləri əksini tapıb.

Aparıcı gələn ay yayımlanacaq növbəti verilişdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, bu münaqişə nəticəsində doğma yurdlarından didərgin düşmüş bir milyon azərbaycanlı qaçqın və məcburi köçkündən danışılacağını bildirib.

Bir saat davam edən verilişdə Azərbaycan musiqiləri də səsləndirilib.

# AzTV: tarix və müasirliyin harmoniyası

Hər bir dövlətin transmilli informasiya resursları ilk növbədə həmin dövlətin dünya arenasında uğurlu təbliği, lokal və beynəlxalq miqyasda yaşanan ictimai-siyasi proseslərə obyektiv və operativ reaksiya, vətəndaş cəmiyyətinin müntəzəm qaydada zəruri məlumatlarla təmin olunması məqsədlərinə xidmət etməlidir. Müasir dövrdə qlobal infosferada izlədiyimiz proseslər onu deməyə əsas verir ki, dünyanın BBC, CNN, Euronews, New York Times, Washington Post və digər nüfuzlu media orqanları istənilən hadisəyə obyektiv, media parametrləri kontekstindən deyil, daha çox korporativ maraqlar müstəvisindən baxır, təmsil etdiyi dövlətin və ya beynəlxalq təşkilatın prinsiplərini üstün tutur, bir çox strateji məsələlərdə isə lazım gəldiyi an təhdid, yaxud təsir mexanizmi kimi media resurslarından istifadə olunur. Başqa sözlə, daxili informasiya resursları zəif olan və ya cəmiyyətin informasiya təminatını tam ödəməyən ölkələr əcnəbi media qurumlarının aramsız hücumlarına, yaxud informasiya terroruna, kiberhücumlara məruz qalır ki, nəticədə vətəndaş cəmiyyəti ilə dövlət idarəçilik institutları arasında, daxili sabitlik və təhlükəsizliyin təmini məsələsinə yanaşmada ciddi problemlər yaşanır, infosistemin kənar təsirlərlə idarə olunması ölkəni xaos, anarxiya, qarşıdurmaya sürükləyir. Uzağa getmək lazım deyil. Yaxın Şərq ssenarisinin ilk növbədə məhz media və ya internet mediası üzərindən cəmiyyətə ötürüldüyü, əhalinin informasiya ilə manipulyasiya edildiyi, başqa sözlə, manqurtlaşdırıldığı və bütün bunların məntiqi nəticəsi olaraq dağıntılar, söndürülməsi hələ də mümkün olmayan müharibə ocaqları və beynəlxalq humanitar fəlakət çağdaş dünyamızın acı reallıqlarıdır. Bu baxımdan, virtual məkanda təmsil etdiyi gücünü, qüdrətini nümayiş etdirmək, habelə, milli maraqları ən yüksək tribunalarda müdafiə etməyi bacarmaq üçün güclü informasiya resursları olmalı, ölkənin informasiya təhlükəsizliyinin qorunması məqsədilə ilk növbədə daxildə düşünülmüş və kompleks ideoloji iş aparılmalı, cəmiyyətin informasiyaya olan tələbatı tam şəkildə ödənilməlidir. Yalnız real, obyektiv və operativ informasiya ilə təmin olunmuş cəmiyyətin kənar təsirlərdən qorunma instinkti yüksək olur, vətəndaşlar baş vermiş istənilən hadisəni düzgün və obyektiv təhlil etməyi bacarırlar. Bu baxımdan Azərbaycan da yerləşdiyi coğrafi mövqenin onun qarşısında informasiya təhlükəsizliyi sahəsində ciddi tələblər qoyduğunu dərk edir, istər regionda yaşanan geosiyasi proseslər, istərsə də ölkəmizə qarşı yürüdülən aktiv, yaxud passiv infotəhdidlərdən öz informasiya məkanını qorumaq istiqamətində sistemli və kompleks addımlar atır. Bu gün ölkə daxilində onlarla TV, radio, internet resurslarının fəaliyyət göstərməsi, 80%-dən çox vətəndaşın geniş zolaqlı internet şəbəkəsindən istifadə etməsi, ən əsası isə, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, dünyanın istənilən nöqtəsini dəqiq və operativ izləmək imkanı verən 3 peykimizin orbitdə mövcud olması görülən işlərin real nəticəsidir. Bütün bunlar daxili informasiya resurslarımızın, xüsusən televiziya kanallarımızın dünya arenasına çıxmasına, deməli, həm də Azərbaycanın uğurlu təqdimatı, təbliğatçılıq işinin daha effektiv şəkildə aparılmasına geniş imkanlar yaradır. Qalır bu imkandan maksimum yararlanmaqla milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi beynəlxalq arenada məhsuldar və keyfiyyətli şəkildə təqdim etmək, yalnız daxildə deyil, qlobal informasiya məkanında azərbaycançılıq ideologiyasını geniş yaymaqla soydaşlarımız arasında həmrəyliyi daha da gücləndirmək. Prezident İlham Əliyevin əsas məqsədi də məhz budur: Vətənə, milli dəyərlərə, azərbaycançılıq ideologiyasına sıx bağlı olan, ürəyi Vətənlə döyünən, sağlam düşüncəli gənc nəsil yetişdirmək, vətəndaş cəmiyyətini yad təsirlərdən və təhdidlərdən qorumaq, media resurslarının peşəkarlığını artırmaq. Bu gün Azərbaycanda, regionda və dünyada media sahəsində mövcud trendləri təhlil edərkən, tam əminliklə söyləmək olar ki, sözügedən istiqamətdə ölkə mediasının ruporu, aparıcı qüvvəsi məhz Azərbaycan Televiziyası və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətidir.

## NƏYƏ GÖRƏ AZTV?

İlk növbədə ona görə ki, Azərbaycan Televiziyası və Radio Verilişləri QSC-nin tarixən olduğu kimi bu gün də yalnız bir missiyası, bir ideoloji xətti var: dövlətçilik ənənələrini, milli ideologiyanı və milli mənlik şüurunu, milli məfkurəni hər şeydən üstün tutmaq, bu yolda istənilən xarici təhdid və təsir mexanizmlərini nəyin bahasına olursa-olsun aradan qaldırmaq, yalnız dövlətə, xalqa xidmət etmək. Bu televiziya üçün həmin prinsipdən başqa bir ideoloji xətt yoxdur.

İkincisi, Azərbaycan Televiziyası və Radio Verilişləri QSC müasir telemәkanda ən geniş yayım coğrafiyasına, müxbir məntəqəsinə və yaradıcı, texniki heyətə malik televiziyadır. Bu gün uzaq ABŞ və Çindən tutmuş, Avropada, həmçinin Rusiya, Türkiyə, İran, Gürcüstan kimi region ölkələrində, eləcə də Yaxın Şərq və Orta Asiya dövlətlərində Azərbaycan Televiziyasının müxbir məntəqələri fəaliyyət göstərir.

Üçüncüsü, bu gün Azərbaycan Televiziyası qədər gündəlik efir proqramında xəbərlər buraxılışlarına, ictimai-siyasi verilişlərə, ümumiyyətlə, aktual mövzuların sosial-siyasi təhlilinə geniş yer ayıran ikinci kanal tapmaq, sadəcə, mümkün deyil.

Ümumiyyətlə, Azərbaycan Televiziyası və Radio Verilişləri QSC üçün ən böyük dəyər reytinq siyahısında birinci olmaq deyil. Məqsəd tamaşaçının illərdir formalaşmış etimadını, inamını qorumaq və əlbəttə ki, onun zövqünü, dünyagörüşünü təmiz nitq, efir estetikasının ən xırda tələblərini nəzərə almaqla düzgün şəkildə formalaşdırmaqdır. Etiraf edək ki, bu gün hər kəs istənilən informasiyanın ən doğrusunu, yaxud müəyyən xəbərlə bağlı rəsmi mövqeyi məhz Azərbaycan Televiziyası və Radiosundan gözləyir. Cəmiyyətdə yayılan, hətta digər kanalların dəfələrlə bəyan etdiyi hər hansı xəbərin həqiqiliyi yalnız bu informasiya vasitəsində elan olunduqdan sonra təsdiqlənir. Cəmiyyət bu gün Azərbaycan dilinin zənginliyinin, saflığının qorunması sahəsində də liderliyin məhz Azərbaycan Televiziyası və Radiosuna məxsus olduğunu etiraf edir. Yeni dövrün tələblərinə uğurla transfer edən, məzmunca tam milli kanal statusunda formalaşan Azərbaycan televiziyası və radiosunda çalışan dilçi alim, akademik və professor heyətinin sayı, habelə, dilimizin təbliği ilə bağlı yayımlanan fərqli proqramlar bu fikrin həqiqiliyini birmənalı şəkildə sübuta yetirir.

## KADR POTENSİALI

Azərbaycan Televiziyası və Radio Verilişləri QSC telejurnalistika sahəsində həm də bir AKADEMİYADIR. Ölkədə kadr siyasətinə ciddi önəm verildiyi bir zamanda burada çağdaş televiziya və radio jurnalistikasının tələblərinə uyğun peşəkar kadrların yetişdirilməsi istiqamətində sistemli addımlar atılır. Təsadüfi deyil ki, bu gün faktiki, əksər TV və Radio vasitələrində istər texniki, istərsə də yaradıcı sahədə çalışanların böyük əksəriyyəti məhz Azərbaycan Televiziyasının yetirmələridir. Yeri gəlmişkən, hazırda televiziyanın nəzdində fəaliyyət göstərən Televiziya Akademiyasını və digər ali təhsil ocaqlarını bitirən gənc məzunlar ilk və bir çox halda daimi iş yeri kimi məhz AzTV-ni seçirlər. Seçimin səbəblərinə gəlincə, əvvəla, bu media orqanının ictimai nüfuzu, ikincisi, illərdir həyatını televiziya və radioya bağlayan peşəkar kollektivin mövcudluğu, müasir tələblərə cavab verən zəngin texniki imkanlar, üçüncüsü, sağlam mühit və insani münasibətlər bu televiziyanın avanqard rolunun mahiyyətinə tam aydınlıq gətirir. Burada istənilən kadr yalnız öz bacarığına və peşə vərdişlərinə nə dərəcədə dərindən yiyələnməsi, vəzifəsinin öhdəsindən nə dərəcədə məsuliyyətlə gəlməsi müqabilində obyektiv qiymətləndirilir. Lakin bütün bunların da fövqündə dayanan ən mühüm amil insanlıq və xeyirxahlıq hissi, Vətən sevgisi, sağlam düşüncə və qarşılıqlı hörmət meyarlarıdır. Əks halda, Azərbaycan Televiziyası və Radiosu kimi 2 mindən çox üzvü olan nəhəng ailənin tərkib hissəsi olmaq qeyri-mümkün sayılır.

Televiziya tarixin salnaməsini yaradır. Bu mənada, böyük inkişaf yolu keçmiş, bir çox nəsillərə örnək olan və neçə-neçə jurnalist nəsli yetişdirən Azərbaycan Televiziyası müasir dövlət tarixinin, Azərbaycan mədəniyyəti və dilinin, ictimai-iqtisadi inkişafının canlı salnaməsi sayıla bilər. Hazırda teleradio xalqın əsl tribunası missiyasını uğurla yerinə yetirir. Ölkə vətəndaşlarına çağdaş dövrün reallıqlarını obyektiv şəkildə çatdırmağı bacarır, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğu prosesi, ardıcıl həyata keçirilən islahatlar, ölkənin dinamik inkişafı, qazanılan nailiyyətlər kanalın gündəlik fəaliyyətində öz əksini tapır, bununla bağlı materiallar və şərhlər, ekspert rəyləri və müsahibələr təqdim olunur, sorğular keçirilir və əhalinin rəyi öyrənilir. Ancaq televiziya qarşısına təkcə daxili auditoriyanı məlumatlandırmaq vəzifəsini qoymur, bu gün Azərbaycan Televiziyasının başlıca hədəfi dünya arenasına çıxmaq, Azərbaycan reallıqlarını beynəlxalq tribunalara daşımaq, bir sıra beynəlxalq güclərin əlində alətə çevrilən transmilli korporasiyaların informasiya şəbəkəsini yarmaq, bununla da dünya azərbaycanlılarının müstəqil respublikamız ətrafında daha sıx və mütəşəkkil qaydada birləşməsinə nail olmaqdan ibarətdir.

Azərbaycan Televiziyasının prioritetləri sırasında dövlət siyasətinin mahiyyətini xalqa çatdırmaq, cəmiyyətin aktual problemlərini müzakirə etmək, qloballaşma dövründə milli-mənəvi, əxlaqi dəyərləri qorumaq, təbliğ etmək, günün nəbzinə uyğun verilişlər hazırlamaq özünəməxsus yer tutur. Azərbaycanın qədim tarixini, zəngin mədəni irsini təbliğ etmək, dünya sivilizasiyasının tarixinə Azərbaycan xalqının imzasını yazmaq kimi şərəfli missiyanı yerinə yetirən televiziyamız bütün bu prosesi peşəkarlıqla həyata keçirir, tamaşaçı və dinləyicilərə yüksək səviyyəli proqramlar təqdim edir.

Azərbaycan Teleradiosunun həyatında böyük yeniləşmə, müasirləşmə dövrü davam edir. Əslində, televiziya yaradıcı sahə olduğundan burada modernləşmə prosesi dayanmadan, fasiləsiz həyata keçirilməlidir. Televiziyada mərhələli şəkildə aparılan ciddi islahatlar ölkəmizdəki dəyişikliklərlə də sıx şəkildə uzlaşır. Beləliklə, Azərbaycan Teleradiosundakı hərtərəfli dəyişikliklər, uğurlar göz önündədir. Bu uğurlar, yüksək peşəkarlıq mühiti, bacarıqlı rəhbərlik və təşkilatçılıq ölkənin bir nömrəsi, xalqın sevimlisi olan televiziyanın bundan sonra da qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləyəcəyindən xəbər verir.



**Rövşən Raqifoğlu**
**Azərbaycan Televiziyası və Radio Verilişləri QSC-nin "İctimai-siyasi proqramlar və xarici xəbərlər studiyası"nın direktoru, filologiya elmləri doktoru**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Respublikamızda yeni mövsümdə sahələrdən 201 min tondan çox pambıq yığılıb

## *Azərbaycanın bir sıra bölgələri üçün ənənəvi təsərrüfatçılıq sahələrindən olan pambıqçılıqda torpaq mülkiyyətçilərinin gəlir imkanları kifayət qədər böyükdür*



(əvvəli ötən sayımızda)

Hələ tarlalarda yığılmamış məhsul çoxdur. Ağcabədili “ağ qızıl” ustaları təsərrüfat ilini uğurla başa vurmaq, 25 min tondan artıq pambıq istehsal edərək, strateji məhsulun tədarükündə respublikanın qabaqcılları sırasında durmağı hədəfləyiblər. **“Respublikamızda kənd təsərrüfatının ənənəvi sahələrindən biri də pambıqçılıqdır. Ona həmişə “ağ qızıl” demişik. Bu sahəni inkişaf etdirməli, daha çox əkib becərməliyik. Bu, məşğulluğun artmasına, kənd sakinlərinin rifah halının yaxşılaşmasına təsir göstərən amildir”.** Bu sözləri Ağcabədi rayon sakini, pambıqçı Möhübbət Zeynalov deyib. Fermer kənd təsərrüfatı məhsullarının istehsalçılarına göstərilən dövlət dəstəyi sayəsində bol məhsul yetişdirdiyini bildirib: **“Aqrolizinq” bizi həmişə texnika ilə təmin edib. Lazım olan mineral gübrəni də güzəştli şərtlərlə almışıq. Becərmə işlərində, mexaniki işlərdə vaxtlı-vaxtında köməklik olunub. Odur ki, tarlalarda məhsulumuz çoxdur. Pambığı son qozasına kimi yığıb təhvil verəcəyik”.**

Son illər dövlətimiz tərəfindən pambıqçılığın inkişafına göstərilən hərtərəfli dəstək Salyanda aqrar sektorun bu sahəsinə marağı xeyli artırıb. Fermerlər pambıq istehsalından yaxşı mənfəət götürdüklərindən rayonda pambıq sahələri ilbəil genişlənir, məhsuldarlıq isə çoxalır. Rayonda xarici ölkələrdən gətirilən pambıq sortları ilə yanaşı, yerli sortların əkininə də üstünlük verilir və məhsuldarlıq heç də az olmur. Bu il Salyanda 7055 hektar pambıq əkilib ki, bunun da 7 hektardan çoxu Salyan Regional Elm və Aqrar İnnovasiya Mərkəzinin payına düşür. İkinci ildir ki, mərkəzin təcrübə sahəsində xarici və yerli sortların qarışıq, yəni çarpaz əkini aparılır.

Salyan Regional Elm və Aqrar İnnovasiya Mərkəzinin direktoru Sədrəddin İbrahimov bildirib ki, bu il Mərkəzə məxsus sahədə Yunanıstan və Türkiyədən gətirilən 10 sort, eləcə də 4 sort yerli pambıq əkilib. Bunda məqsəd yerli iqlim şəraitinə yaxşı uyğunlaşan daha məhsuldar sortların müəyyənləşdirilməsi və həmin sortlardan geniş istifadə olunmasıdır. Artıq təcrübə sahəsində pambıq yığımına başlanılıb. Xarici sortlarla yanaşı, yerli sortların əkildiyi sahələrdə də məhsuldarlıq yüksəkdir və bu sortların bir sıra üstün cəhətləri var. **“Alimlərimizin yetişdirdiyi “Gəncə-110”, “Gəncə-160”, “Gəncə-8”, “Aznixi” sortları xarici sortlara nisbətən 8-10 gün tez yetişir. Həmçinin yerli sortda hər qozada olan pambığın çəkisi 4-4,5 qramdırsa, xarici sortlarda 3-3,5 qrama çatır. Yerli sortlar xəstəlik və ziyanvericilərə daha davamlıdır. Bu üstünlüklərinə görə yerli pambıq sortları iqtisadi cəhətdən daha səmərəlidir”,** - deyə Sədrəddin İbrahimov vurğulayıb. Direktor onu da qeyd edib ki, yerli pambıq sortlarının hər hektarından 40-50 sentner məhsul götürülür. Hədəf isə yaxın gələcəkdə yerli sortların xarici sortlarla seleksiyası nəticəsində hər hektardan 60 sentner məhsul götürməkdir.

Sabirabadlı fermerlər də hər gün pambıq plantasiyalarından 200 tondan çox məhsul toplayaraq qəbul məntəqələrinə göndərirlər. Məhsulun 100-105 tonu maşınların köməyi ilə toplanılır. Pambıqçıların gərgin əməyi nəticəsində indiyədək sahələrdən 15 min tondan çox pambıq yığılıb. Sabirabadlı pambıqçılar bu il 13 min 55 hektar sahədə pambıq yetişdiriblər. Ötən il 18 min tondan çox məhsul istehsal edən torpaq mülkiyyətçiləri bu il də sahələrdə bol məhsul becəriblər. Dövlətin aqrar sektorun, xüsusilə pambıqçılığın inkişafına göstərdiyi dəstək sahibkarların bu ənənəvi sahəyə marağını daha da artırıb. İndi rayonda yüzlərlə fermer pambıq istehsalı ilə məşğul olur və yetişdirdikləri məhsulu son qozasınadək toplamaq üçün bütün qüvvələrini sərf edirlər. Yığım kampaniyası rayonun Moranlı, Şəhriyar, Qaratəpə və Yolçubəyli inzibati ərazi dairələri üzrə nümayəndəliklərində daha nümunəvi təşkil olunub. Nümayəndəliklərdə fəaliyyət göstərən məhsul istehsalçıları becərdikləri sahələrin hər hektarından 25-35 sentner məhsul götürürlər.

Qeyd edək ki, sabirabadlı pambıqçılar ötən il sahələrdən 18 min 169 ton pambıq toplayıblar.

Zərdab rayonunda da strateji məhsul olan pambıq yığımı davam edir və hələlik emal müəssisələrinə 4000 tondan çox “ağ qızıl” təhvil verilib. Rayon İcra Hakimiyyətindən verilən məlumatda bildirilir ki, cari mövsümdə 3232 hektarda pambıq yetişdirilib. Bu il məhsul toplanışında texnikanın qüvvəsindən daha çox istifadə olunur. Bu günədək yığılan “ağ qızıl”ın 1969 tonu məhz pambıqyığan maşınların qüvvəsi ilə toplanıb. Əksər yerlərdə, xüsusilə Bəyimli qəsəbə, İsaqbağı, Şahhüseynli, Qoşaoba və bir sıra digər ərazi vahidlərində fermerlər və fiziki şəxslər texnikanın qüvvəsindən daha səmərəli istifadə edirlər.

Qeyd edək ki, pambıq sahələrində işləyən texnikalar arasında “Aqrolizinq” ASC-nin ölkəyə gətirərək güzəştli şərtlərlə fermerlərə verdiyi “John Deer” şirkətinin müasir kombaynları da var. Keyfiyyəti və səmərəliliyi ilə seçilən “John Deer” şirkətinin “9970” markalı pambıqyığan kombaynları yüksək məhsuldarlığa malikdir. Bu kombaynlar dörd cərgənin (cərgəarası 60-90 santimetr) pambığını qozalar 70-80 faiz açıldığı halda belə, bir dəfəyə yığa bilir. Nəticədə yığılan pambığın maya dəyəri də aşağı düşür. Bu texnikalar, eyni zamanda, pambığı başqa kombaynlarla müqayisədə daha təmiz yığır. “John Deer” şirkətinin pambıqyığan kombaynlarının idarəetməsi asan, manevretmə qabiliyyəti isə yüksəkdir.

Yevlaxlı fermerlər isə bu il 2500 hektar ərazidə pambıq becəriblər. Yevlax şəhər İcra Hakimiyyətindən bildiriblər ki, pambıq əkinlərinin 1281,3 hektarı “MKT İstehsalat Kommersiya” MMC, 826 hektarı “P-Aqro” MMC ilə müqavilə əsasında, 392,7 hektarı isə fərdi qaydada becərilib. Pambığın tez və itkisiz yığılması üçün rayonda bütün qüvvələr səfərbər olunub. Tarlalardan məhsul həm kombaynlar vasitəsilə, həm də əl əməyindən istifadə edilməklə toplanır. Məhsul yığımına hər gün 7 kombayn, 500 nəfərdən çox işçi qüvvə cəlb edilir. Tarlalardan gün ərzində 25 tondan artıq pambıq yığılır.

Bu günədək hər hektardan orta hesabla 18,62 sentner məhsul götürülüb. Hələ tarlalarda yığılmamış məhsul çoxdur. Bu il Yevlax rayonunda beş min tondan çox “ağ qızıl” istehsal ediləcəyi gözlənilir.

Tərtər rayonunda da cari ilin məhsulu üçün 3300 hektar sahədə pambıq becərən tərtərli fermerlər və torpaq mülkiyyətçiləri hazırda məhsul yığımını davam etdirirlər. Ötən il hektarın orta məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sırada dayanan tərtərlilər bu ili də yüksək göstəricilərlə başa vurmağı qarşıya məqsəd qoyublar. Tərtər rayon İcra Hakimiyyətindən bildiriblər ki, bu günə qədər tarlalardan 6300 tondan çox məhsul toplanıb. Hər hektardan orta hesabla 18,8 sentner məhsul götürülüb. Hələ tarlalarda yığılmamış məhsul çoxdur. Tərtər pambıqçıları havaların əlverişli keçməsindən istifadə edərək, hər gün orta hesabla 130 tondan çox məhsul toplayırlar. Yığılan pambıq “MKT İstehsalat Kommersiya” MMC və “Azərpambıq” MMC-yə təhvil verilir.

Ötən il 3123 hektarda pambıq becərən Tərtər pambıqçıları tarlalardan 8419 ton məhsul tədarük ediblər. Bu, orta məhsuldarlığa görə ötən il respublika üzrə ən yüksək göstərici olub.

Ağdam rayonunda isə cari ilin məhsulu üçün 3100 hektar sahədə pambıq becərən ağdamlı fermerlər və torpaq mülkiyyətçiləri hazırda məhsul yığımını davam etdirirlər. Tarlalardan hər gün 240 tondan çox “ağ qızıl” toplanır. Ağdam rayon Statistika İdarəsindən bildiriblər ki, bu günə qədər tarlalardan 4454,6 tondan çox məhsul yığılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 131,8 ton və ya 3 faiz çoxdur. Pambığın 85 faizindən çoxu maşınlarla yığılıb. Yığılan pambıq “MKT İstehsalat Kommersiya” MMC, “Azərpambıq” MMC, “P-Aqro” MMC-yə və fərdi qaydada olan pambıq qəbulu məntəqəsinə təhvil verilir.

Qeyd edək ki, ötən il 3005 hektarda pambıq becərən Ağdam pambıqçıları tarlalardan 6173,26 ton məhsul tədarük ediblər.

Bu mövsüm imişlili pambıqçılar 13 min 645 hektar sahədə pambıq yetişdiriblər. Yığıma mütəşəkkil başlayan fermerlər indiyədək plantasiyalardan gün ərzində 400-450 ton xam pambıq toplayırlar. Məhsul istehsalçıları yetişdirdikləri pambığı qısa müddətdə və itkisiz toplamaq üçün bütün qüvvələrini səfərbər ediblər. Dövlət başçısı tərəfindən hər hektarda məhsuldarlığın ən azı 20 sentnerə çatdırılmasının hədəf kimi qarşıya qoyulması torpaq mülkiyyətçilərinin məsuliyyətini daha da artırıb. Onlar bu tövsiyəyə layiqincə əməl etmək üçün becərmənin bütün mərhələlərində bitkiyə aqrotexniki tələblər səviyyəsində qulluq ediblər. Bunun nəticəsində də sahələrdə bol məhsul yetişib.

Rayon pambıqçıları ötən illərdən fərqli olaraq bu mövsüm məhsulun maşınlarla yığılmasına üstünlük veriblər. Hazırda plantasiyalarda 10-dan artıq “Aqrolizing” ASC-nin ölkəyə gətirdiyi “John Deer” şirkətinin “9970” markalı kombaynı işləyir və hər gün tədarük olunan məhsulun 69 faizi bu maşınların köməyi ilə toplanılır.

Aranlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əlhümbət Əlkişiyev bildirib ki, Aranlı kəndində fəaliyyət göstərən 55 fermer bu il 1990 hektar sahədə pambıq becərib və indiyə kimi sahələrdən 2600 tondan çox pambıq toplayıb. Məhsuldarlıq orta hesabla 30 sentnerdən çox olur. Hələ sahədə məhsul çoxdur. Təxmini hesablamalara görə sahibkarlar bundan sonra sahələrdən daha 1400 ton pambıq toplaya biləcəklər. Tədarük olunan məhsulun, demək olar ki, hamısı maşınların köməyi ilə yığılıb.

Qeyd edək ki, imişlili pambıqçılar bu il sahələrdən 20 min tondan çox məhsul toplamağı qarşıya məqsəd qoyublar.

**Nardar BAYRAMLI**

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

IDEA İctimai Birliyinin və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 6-da “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi 11 ünvanında 600 nəfərə yaxın sakinin məskunlaşdığı beşmərtəbəli binaları əhatə edir.









“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Xətai rayon İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 6 500 kvadratmetr sahəsi olan həyətdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə xüsusi qurğular yerləşdirilib, idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğul olma vərdişlərinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilib, 600 kvadratmetrə yaxın ərazidə yaşıllıq zolağı salınıb. Sakinlərin rahatlığının təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb, Daxili İşlər Nazirliyinin “Təhlükəsiz şəhər” avtomatlaşdırılmış idarəetmə mərkəzinin şəbəkəsinə qoşulub.

Qeyd edək ki, “Bizim həyət” layihəsi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir. Xətai rayonunda sakinlərin istifadəsinə verilən həyət layihə çərçivəsində abadlaşdırılan yeddinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# “Bakcell”in dəstəyi ilə yaradılmış startap təlim və kurs axtarışını asanlaşdırır







Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi “Bakcell” şirkəti yerli startaplara dəstək göstərməyə və özünün AppLab inkubasiya proqramı vasitəsilə innovasiyaları insanların gündəlik həyatına gətirməyə davam edir.

AppLab tərəfindən dəstəklənən layihələrin bir çoxu uğur qazana bilib, maraqlı və unikal məhsulların yaradılmasına nail olub. Belə startaplardan biri olan “Bilik.al” insanlara müxtəlif sahələr üzrə təlim və kurslar tapmağa kömək edən internet səhifəsidir. Bu səhifə sayəsində istifadəçilər “PHP proqramlaşdırma dilini harada öyrənmək olar?”, “Ən yaxşı yoqa müəllimi kimdir?” və yaxud “Futbol məktəbini harada tapmaq olar?” kimi suallara asan şəkildə cavab tapa bilirlər. Sözügedən platforma İT sahəsindən tutmuş kulinariyaya qədər bir çox sahəni əhatə edən seçilmiş kateqoriyalar üzrə sürətli axtarış imkanını verir. İnternet səhifəsinin mobil versiyası da mövcuddur ki, bu da istifadəçilərə istənilən kursu mobil telefon və planşetlərində rahatlıqla tapmaq imkanı verir. Kurslar və təlimlər haqqında məlumatın sayta yerləşdirilməsi tamamilə pulsuzdur. Gələcəkdə “Bilik.al” komandası iOS və Android üzərində işləyən cihazlar üçün mobil tətbiqetmə yaratmağı da planlaşdırır.

**“Bilik.al” layihəsinin əsas məqsədi şəxsi və peşəkar inkişaf üçün müvafiq kurs və təlim tapıb uğur qazanmaqda insanlara kömək etməkdir. Cəmi 5 ay ərzində kurs və təlimlərin təşkili ilə məşğul olan 40-dan çox şirkətlə əməkdaşlıq qurulub və hazırda saytımızda aktiv istifadəçi sayı 5 mini ötür. İnanırıq ki, bu layihə istənilən kursu asanlıqla tapmaq üçün ən əlverişli resurs olmaqla gənclərin uğur qazanmaq üçün inkişaf etmək imkanlarını artıracaq. Layihəni reallaşdırmaqda göstərdikləri böyük dəstək və məsləhətlərə görə “Bakcell” şirkətinə və AppLab mərkəzinə minnətdarıq”,** - deyə “bilik.al” layihəsinin təsisçilərindən biri Cavid Abbasov bildirib.

AppLab proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün “Bakcell”dən dəstək alırlar. İştirakçılar müvafiq təlimlərlə yanaşı, şirkətin AppLab Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı, üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. AppLab Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

İnnovasiya sahəsində lider olan “Bakcell” öz innovativ ideyalarını həyata keçirmək üçün gənclərə lazımi şərait yaratmağa və dəstək göstərməyə həmişə hazırdır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**“AZƏRTAC”,**
**“Azadinform”, “SİA”**
**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Nadir AZƏRİ